AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ

## AzDTN 2.7-2

# YAŞAYIŞ BİNALARI.
# LAYİHƏLƏNDİRMƏ NORMALARI

RƏSMİ NƏŞR

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ

BAKI-2021

AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ

# AzDTN 2.7-2

# YAŞAYIŞ BİNALARI. LAYİHƏLƏNDİRMƏ NORMALARI

RƏSMİ NƏŞR

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ

BAKI-2021

**AzDTN 2.7-2 “Yaşayış binaları. Layihələndirmə normaları”** (Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi-Bakı, 2021-ci il, səh.28)

| | |
|---|---|
| ***İşləyib:*** | *Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi* |
| ***Təsdiqə hazırlayıb və təqdim edib:*** | *Texniki normalar, elm və layihəçilərlə iş şöbəsi* |
| ***Təsdiq edilib:*** | *Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 2021-ci il 30 noyabr tarixli 03 nömrəli qərarı ilə* |
| ***Qüvvəya minib:*** | *2021-ci il 30 noyabr tarixdən* |
| ***Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi:*** | *15202111300003* |

***İlk dəfə qəbul edilir***

---

Bu texniki normativ hüquqi akt qüvvəyə mindiyi tarixdən СНиП 2.08.01-89* “Жилые здания” normativ sənədin Azərbaycan Respublikası ərazisində hüquqi qüvvəsi dayandırılır.

@ AzDŞAK-TN/Q № 0030-2021

**AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ**

---

# YAŞAYIŞ BİNALARI. LAYİHƏLƏNDİRMƏ NORMALARI

## 1. Tətbiq sahəsi

"Yaşayış binaları. Layihələndirmə normaları"nın (bundan sonra –Normalar) tələblərinə yeni tikilən, hündürlüyü 75 m-dən çox olmayan çoxmənzilli yaşayış binalarının və mənzil tipli yataqxanaların, çoxfunksiyalı binaların tərkibində yaşayış sahələrinin layihələndirilməsində, həmçinin, onların istismarı, texniki yeniləşdirilməsi, yenidən qurulması və əsaslı təmirində təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi və fiziki şəxslər tərəfindən riayət olunmalıdır.Hündürlüyü 75 m-dən çox olan binalar üçün onların həcm-planlaşdırma və konstruktiv həllərini, həmçinin yanğın təhlükəsizliyinin, sanitariya-epidemioloji tələblərin və komfortlu yaşayış şəraitinin təmin edilməsinə yönəlmiş mühəndis-texniki və təşkilati tədbirləri özündə əks etdirən xüsusi texniki şərtlər (bundan sonra - XTŞ) hazırlanmalıdır. XTŞ şifarişçinin layihə tapşırığına uyğun olaraq elmi-texniki potensiala və praktiki təcrübəyə malik olan elmi-tədqiqat təşkilatları tərəfindən hazırlanır.

## 2. Normativ istinadlar

Normalarda aşağıda göstərilən normativ sənədlərə istinad edilib:

1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi ;
2. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi;
3. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 08 iyul tarixli 796 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları";
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası";
5. "Əhalinin sıx toplaşdığı yerlərdə və obyektlərdə videonəzarət sistemlərinin yaradılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 iyul tarixli 131 nömrəli qərarı;
6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 73 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə Qaydalar";
7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri";
8. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin 2009-cu il 07 aprel tarixli 37 nömrəli əmri ilə təsdiq edilmi "Tibb müəssisələrində sanitariya-epidemioloji tələblərə dair Qaydalar" (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat № 3441 16 aprel 2009-cu il);
9. AzDTN 2.1-1 Yüklər və təsirlər;
10. AzDTN 2.3-1 Seysmik rayonlarda tikinti;

| | |
|---|---|
| 11. AzDTN 2.6-1 | Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması; |
| 12. AzDTN 2.7-1 | Avtomobil dayanacaqları; |
| 13. AzDTN 2.11-1 | Su təchizatı. Xarici şəbəkə və qurğular; |
| 14. AzDTN 2.11-2 | Kanalizasiya. Xarici şəbəkə və qurğular; |
| 15. AzDTN 2.12-1 | Qazanxana qurğuları. Layihələndirmə normaları; |
| 16. AzDTN 2.12-2 | İsitmə, ventilyasiya və havanın kondisiyalaşdırılması. Layihələndirmə normaları; |
| 17. AzDTN 2.13-1 | Qaz təchizatı. Layihələndirmə normaları; |
| 18. AzDTN 2.16-1 | Beton və dəmirbeton konstruksiyalar. Layihələndirmə normaları; |
| 19. AzDTN 2.17-1 | Daş və armaturlanmış daş konstruksiyalar. Layihələndirmə normaları; |
| 20. AzDTN 2.18-1 | Polad konstruksiyalar. Layihələndirmə normaları; |
| 21. AzDTN 2.19-1 | Ağac konstruksiyalar. Layihələndirmə normaları; |
| 22. МСН (DTN) 2.02-01-97 | Bina və qurğuların yanğın təhlükəsizliyi |
| 23. МСН (DTN) 2.04-03-2005 | Səsdən mühafizə |
| 24. МСН (DTN) 2.04-05-95 | Təbii və süni işıqlandırma |
| 25. МСП (DQT) 2.04-101-2001 | Binaların istilik mühafizəsinin layihələndirilməsi |
| 26. СНиП (TNvəQ) 2.04.01-85* | Binaların daxili su təchizatı və kanalizasiyası |
| 27. СНиП (TNvəQ) 2.08.02-89* | İctimai binalar və qurğular |
| 28. СНиП (TNvəQ) II-3-79* | İnşaat istilik texnikası |
| 29. ВСН (STN) 59-88 | Yaşayış və ictimai binaların elektrik avadanlığı. Layihələndirmə normaları |
| 30. ВСН (STN) 60-89 | Yaşayış və ictimai binalarda rabitə, siqnalizasiya və mühəndis avadanlığının qurulması.Layihələndirmə normaları. |
| 31. ГОСТ (DÜİST) 5746-2003 | Sərnişin liftləri. Əsas parametrlər və öıçülər |
| 32. ГОСТ (DÜİST) 25772-83 | Pilləkən, balkon və dam örtüklərinin polad məhəccərləri. Ümumi texniki şərtlər |
| 33. ГОСТ (DÜİST) 27751-2014 | İnşaat konstruksiyalarının və əsasların etibarlılığı. Əsas müddəalar |
| 34. ГОСТ (DÜİST) 30494-2011 | Yaşayış və ictimai binalar. Yerləşgələrdə mikroiqlim parametrləri |

| | |
|---|---|
| 35. РД (RS) 34.21.122 | Bina və qurğuların ildırımdan mühafizənin qurulması üzrə Təlimat |
| 36. СанПиН(SN və Q) 2605-82 | Yaşayış və ictimai binaların və yaşayış tikinti ərazisinin insolyasiyasının təmin edilməsinin sanitar norma və qayqaları |

Qeyd: - mötərizələrdə göstərilən işarələnmələr aşağıdakı kimi oxunur:

TNvəQ – Tikinti Norma və Qaydaları;
DTN – Dövlətlərarası Tikinti Normaları;
DQT - Dövlətlərarası Qaydalar Toplusu;
STN – Sahə Tikinti Normaları;
DÜİST – Ümumittifaq dövlət standartı;
RS – Rəhbəredici sənəd;
SN və Q - Sanitariya norma və qaydaları.

**3. Əsas anlayışlar**

Normalarda aşağıdakı əsas anlayışlardan istifadə olunur:

| | |
|---|---|
| **çoxmənzilli yaşayış binası, o cümlədən:** | iki və daha çox mənzildən ibarət, mənzillərinin ümumi istifadə sahələri və mühəndis sistemləri olan yaşayış binası; |
| **seksiya tipli -** | seksiyaları bir-birindən bütöv divarlarla ayrılmış, bir və ya bir neçə seksiyadan ibarət, mənzillərdən pilləkən qəfəsinə birbaşa və ya dəhliz vasitəsi ilə çıxışı olan yaşayış binası; |
| **qalereya tipli -** | mərtəbənin bütün mənzillərindən ümumi qalereya vasitəsi ilə ən azı iki pilləkən qəfəsinə çıxışı olan bina; |
| **dəhliz tipli-** | mərtəbənin bütün mənzillərindən ümumi dəhliz vasitəsi ilə ən azı iki pilləkən qəfəsinə çıxışı olan bina; |
| **bloklaşdırılmış yaşayış evi -** | hər birinin həyətyanı sahəyə birbaşa çıxışı olan, iki və daha artıq mənzildən ibarət yaşayış binası; |
| **torpağın planlaşdırma səviyyəsi -** | binanın səkisi ilə yer səthinin sərhəddində səviyyəsi; |
| **binanın hündürlüyü -** | binanın səkisi və ya binaya bitişik torpağın planlaşdırma səviyyəsindən (əgər maillik varsa aşağı planlaşdırma səviyyəsindən) sonuncu mərtəbə örtüyünün alt səviyyəsinədək olan hündürlük qəbul edilir; |
| **binanın yerüstü hissəsinin mərtəbəliyi-** | bütün yerüstü mərtəbələrinin, o cümlədən texniki, mansarda, həmçinin kürsülük (onun örtüyünün üstü ilə torpağın orta planlaşdırma səviyyəsi arasındakı fərq 2,0 metrdən az olmadıqda) mərtəbələrinin sayıdır; |
| **binanın mərtəbələrinin sayı -** | bütün mərtəbələrin, o cümlədən yeraltı, zirzəmi, kürsülük, yerüstü, texniki və mansarda mərtəbələrinin sayıdır; |
| **mansarda mərtəbəsi -** | binanın çardaq hissəsində yerləşən, yaşayış və qeyri-yaşayış məqsədləri üçün nəzərdə tutulmuş sahə; |

**yerüstü mərtəbə** -** döşəməsinin səviyyəsi torpağın planlaşdırma səviyyəsindən yuxarıda olan mərtəbə;

**birinci mərtəbə -** binanın ən aşağı yerüstü mərtəbəsi (±0,00 səviyyəsindən yuxarı);

**zirzəmi mərtəbəsi -** mərtəbə hündürlüyünün yarıdan çox hissəsi torpağın planlaşdırma səviyyəsindən aşağıda olan mərtəbə;

**yeraltı mərtəbə-** mərtəbə örtüyünün alt səviyyəsi hamarlanmış yer səthindən aşağı olmaqla, tam hündürlüyü boyu yerin altında yerləşən mərtəbə;

**texniki mərtəbə -** binanın mühəndis avadanlığının yerləşdirilməsi və kommunikasiyaların çəkilişi üçün mərtəbə. Bu mərtəbə binanın aşağı hissəsində (yeraltı texniki mərtəbə), yuxarı hissəsində (texniki çardaq) və ya mərtəbələrarası ola bilər. Mərtəbələr arasında hündürlüyü 1,8 m və daha az olan məkan, yalnız kommunikasiyaların çəkilişi üçün istifadə olunur və mərtəbə sayılmır;

**kürsülük mərtəbəsi -** mərtəbə hündürlüyünün yarıdan çox hissəsi torpağın planlaşdırma səviyyəsindən yuxarı olan mərtəbə;

**avtomobil duracağı-** avtomobillərin saxlanması üçün nəzərdə tutulmuş (təmir və texniki xidmət istisna olunur) yeraltı və ya yerüstü tikili;

**antresol -** yerləşgənin faydalı sahəsinin artırılması üçün nəzərdə tutulmuş, yaşayış, ictimai və ya istehsalat binasının hündür yerləşgəsinin yuxarı hissəsini tutan yarımmərtəbə;

**balkon -** fasadın divar səthindən çıxan, məhəccərlə hüdudlanmış meydança;

**eyvan -** binaya bitişik və ya içərisində tikilmiş, isidilməyən, açıq və ya şüşələnmiş yerləşgə;

**Binadaxili və binaya bitişik tikili -** binanın hüdudları daxilində yerləşən və onun hüdudlarından 1,5 m-dən çox kənara çıxan həcmlərdə yerləşən tikili;

**yaşayış sahəsi -** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq daşınmaz əmlak hesab edilən və vətəndaşların daimi yaşaması üçün yararlı olan (müəyyən edilmiş sanitariya və texniki norma və qaydalara, qanunvericiliyin digər tələblərinə cavab verən) ayrıca sahə başa düşülür.

**mənzil -** Bir və ya bir neçə otaqdan, habelə yaşama ilə əlaqədar məişət və digər ehtiyacların ödənilməsi üçün nəzərdə tutulmuş yardımçı sahələrdən ibarət, çoxmənzilli binanın ümumi istifadədə olan sahələrinə birbaşa daxil olmaq imkanını təmin edən yaşayış binasının tərkib hissəsi mənzil hesab edilir.

**otaq -** mənzilin və ya yaşayış evinin bilavasitə yaşamaq üçün nəzərdə tutulmuş ayrıca hissəsi;

**mətbəx -** kulinariya və qida qəbulu üçün nəzərdə tutulmuş otaq;

**taxça-mətbəx -** elektrik pilətəsi və mexaniki sorucu-vurucu ventilyasiya ilə təchiz edilmiş, yemək hazırlamaq üçün nəzərdə tutulmuş, lakin yemək qəbulu ərazisi olmayan sahə;

**mətbəx - yemək otağı-** mənzildə yeməyin hazırlanması və qəbulu üçün ayrıca zonaları olan otaq;

**liftin holu -** liftin girişi qarşısında sahə;

| | |
|---|---|
| **holl -** | binaların və mənzillərin giriş hissəsində istirahət üçün, gözləmə yeri kimi və sairə məqsədlərlə istifadə olunan sahə; |
| **lociya -** | xarici məkana açıq, üç tərəfdən divarla bağlanmış (künc hissədə iki tərəfdən), dərinliyi otaqların təbii işıqlandırılması tələblərinə uyğun, döşəməsi otağın döşəməsinin davamı olan xarici divara bitişik sahə; |
| **yeraltı texniki sahə -** | birinci və ya kürsülük mərtəbəsinin alt örtüyü ilə torpaq səthi arasında mühəndis sistemlərinə aid boru kəmərlərinin yerləşdirilməsi üçün nəzərdə tutulmuş yer; |
| **yardımçı sahələr -** | sakinlərin məişət və digər ehtiyaclarının ödənilməsi üçün, o cümlədən mətbəx və ya taxça-mətbəx, holl, vanna otağı və ya duş, tualet və ya birləşdirilmiş sanitar qovşağı, yığnaq otağı və ya divar təsərrüfat şkafı, paltaryuma otağı, istilik generatorı üçün yerləşgələr; |
| **ictimai təyinatlı sahələr (obyektlər) -** | binanın və yaşayış ərazisinin sakinlərinə xidmət etmək üçün nəzərdə tutulmuş, dövlət sanitariya-epidemioloji xidmət tərəfindən yaşayış binasında yerləşdirilməsinə icazə verilmiş sahələr; |
| **işıqlandırma aralığı -** | dəhlizə bitişik, onun işıqlandırılmasına xidmət edən təbii işıqlandırılmış məkan. Dəhlizin işıqlandırılması pilləkən qəfəsi vasitəsi ilə də aparıla bilər (dəhlizdən eni ən azı 1,2 m olan şəffaf (şüşə) qapı ilə ayrılan pilləkən qəfəsi vasitəsilə); |
| **tambur -** | qapılar arasında yerləşən, binaya, pilləkən qəfəsinə və digər sahələrə soyuq havanın, tüstünün və müxtəlif qoxuların keçməsinin qarşısını almaq üçün nəzərdə tutulmuş keçid məkanı; |
| **terras -** | binaya bitişik məhəccərlə hüdudlanmış açıq meydança və ya aşağı mərtəbənin damında yerləşdirilmiş meydança; |
| **Çardaq -** | sonuncu mərtəbə örtüyü ilə binanın dam örtüyü və sonuncu mərtəbə örtüyündən yuxarıda olan xarici divarlar arasındakı məkan; |
| **enerji səmərəliliyi (enerji effektivliyi) -** | enerji ehtiyatlarından istifadənin effektinin həmin effektin alınması məqsədi ilə istehsal olunmuş enerji resurslarının sərfinə nisbətini əks etdirən xarakteristikadır. |
| **yenidən planlaşdırma -** | Yaşayış sahəsinin yenidən planlaşdırılması yaşayış sahəsinin texniki pasportunda dəyişikliklər edilməsini tələb edən yaşayış sahəsində arakəsmələrin sökülməsi (ləğv edilməsi), yerinin dəyişdirilməsi və ya yenilərinin quraşdırılması, qapı yerlərinin dəyişdirilməsi və yenilərinin quraşdırılması, mənzildəki yardımçı sahələr hesabına otaqların sahəsinin genişləndirilməsi, əlavə mətbəxin və ya sanitar qovşaqların quraşdırılması və ya onların yerinin dəyişdirilməsi kimi yaşayış sahəsinin konfiqurasiyasının dəyişdirilməsindən, habelə istilik sisteminin quraşdırılması və ya yenidən quraşdırılmasından ibarətdir; |

**yenidən qurulma -** Yaşayış sahəsinin yenidən qurulması yaşayış sahəsinin texniki pasportunda dəyişikliklər edilməsini tələb edən yaşayış sahəsində konstruktiv elementlərin (o cümlədən, yaşayış sahəsinin daşıyıcı divar və dirəklər, mərtəbələrarası arakəsmələr, pilləkən meydançaları və pilləkənlərin), çoxmənzilli binada birdən artıq yaşayış və ya qeyri-yaşayış sahəsinə xidmət edən kommunikasiya qurğularının (o cümlədən, lift şaxtası və ya digər şaxtalar, bacalar, sanitar-texniki və digər avadanlıqların) quraşdırılması, əvəz edilməsi və yerinin dəyişdirilməsindən ibarətdir.

**quru boru -** yanğın əleyhinə su təchizatı qurğusu;

**erqonomika -** insan fəaliyyətinin düzgün təşkil edilməsi, əməyin insanın fizioloji və psixoloji imkanlarına uyğunluğu, insanın işinin daha effektiv təşkil edilməsi haqqında elm;

Mətndə getmiş işarələr:

N1 - mərtəbədən açıq keçidlər üzrə bayır hava zonası ilə girişi olan tüstülənməyən pilləkən qəfəsi tipi;

N2 - yanğın zamanı daxilində hava təyziqi yaradılan tüstülənməyən pilləkən qəfəsi tipi;

N3 - qapalı tambur (tambur-şlüz) vasitəsi ilə girişi olan tüstülənməyən pilləkən qəfəsi tipi; L1 - hər mərtəbədə xarici divarlarında şüşələnmiş və ya açıq boşluqları olan adi pilləkən qəfəsi tipi;

P2 - maili pilləkən marşlı yanğın nərdivanı;

YN - yanmayan tikinti materialları;

Y1 - çətin yanan tikinti materialları.

**4. Ümumi müddəalar**

**4.1.** Yaşayış binalarının inşası Normaların və şəhərsalma və tikintiyə dair digər normativ sənədlərin tələblərinə uyğun olan tikinti layihəsi üzrə həyata keçirilməlidir.

**4.2.** Yaşayış binasının ərazidə yerləşdirilməsi, bina ətrafı torpaq sahəsinin ölçüləri, mərtəbələrin sayı ərazi planlaşdırma sənədlərinin (baş plan, müfəssəl plan) və şəhərsalma və tikintiyə dair müvafiq normativ sənədlərin tələbləri əsasında müəyyən olunur.

**4.3.** Yaşayış binaları, pilləkənlər, pilləkən qəfəsləri, çıxış və girişlər, dəhlizlər, açıq keçidlər, rampalar, liftlər, əlilliyi olan şəxslərin yaşadıqları mənzillərin giriş qapıları əlilliyi olan şəxslərin rahat və təhlükəsiz hərəkəti üçün ağlabatan uyğunlaşdırılmalıdır.

Qocalar üçün nəzərdə tutulan yaşayış binaları doqquz mərtəbədən, əlilliyi olan şəxslərin ailələri üçün nəzərdə tutulan binalar isə beş mərtəbədən hündür olmamalıdır. Digər yaşayış binalarında isə əlilliyi olan şəxslər üçün mənzillərin birinci mərtəbədə yerləşdirilməsi tövsiyə olunur.

**4.4.** Yaşayış binasının layihəsinin tərkibində binanın istismarı zamanı təhlükəsizliyin təmin edilməsi üçün binanın istismarını həyata keçirən təşkilatlar və yaşayış binalarının tərkibində yerləşən ictimai təyinatlı obyektlərin mülkiyyətçiləri (icarədarları) üçün zəruri olan, binaya aid olan elektrik xətlərinin sxemləri, ventilyasiya kanallarının yerləri və istismar zamanı mülkiyyətçilər (icarədarlar) tərəfindən tikinti işləri aparmaqla müdaxilə edilməsinə yol verilməyən digər bina elementləri və avadanlıqları barədə məlumatlar, yanğından mühafizə sisteminin saxlanılması və texniki xidmət qaydaları və yanğın zamanı təxliyə planını özündə ehtiva edən təlimat olmalıdır.

**4.5.** Binadakı mənzillərin yenidən planlaşdırılması və yenidən qurulması Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə uyğun həyata keçirilməlidir.

**4.6.** Yaşayış binalarında, təsərrüfat-içməli, yanğın əleyhinə, isti su təchizatı, kanalizasiya və su axıtma sistemləri TNvəQ 2.04.01 və AzDTN 2.11-1-ə, isitmə, ventilyasiya və tüstü əleyhinə mühafizə sistemləri isə AzDTN 2.12-2-yə uyğun nəzərdə tutulmalıdır.

**4.7.** Yaşayış binalarında elektrik təchizatı, elektrik güc avadanlığı, telefonlaşdırma, televiziya antenləri, həmçinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun avtomatik yanğın siqnalizasiyası, yanğın zamanı yanğınsöndürmə heyətinin və vasitələrinin liftlə daşınması, xəbərvermə və təxliyyənin idarə edilməsi və layihə tapşırığında nəzərdə tutulmuş digər mühəndis sistemləri nəzərdə tutulmalıdır.

**4.8.** Yaşayış binalarının damında verlişlərin kollektiv qəbulu üçün televiziya anteni və radio verilişi şəbəkə dirəyinin quraşdırılması nəzərdə tutulmalıdır. Radiorele dirəklərinin və qüllələrinin quraşdırılması qadağandır.

**4.9.** Yaşayış binasında liftlər Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 62-ci maddəsinin tələblərinə uyğun layihələndirilməlidir. Mərtəbələrdə mənzillərin ümumi sahəsindən asılı olaraq müxtəlif mərtəbəli yaşayış binalarının liftlə təchizatı üçün lazım olan sərnişin liftlərinin minimal sayı və hərəkət sürətinə dair minimal tələblər əlavə 1-də verilir.

**4.10.** Liftin qarşısındakı meydançanın eni və liftin ölçüləri təcili yardım xərəyində daşınan xəstəni liftə keçirməyə imkan verməli və aşağıdakı göstəricilərdən az olmamalıdır:

- yükgötürmə qabiliyyəti 1000 kq-a qədər, kabinəsinin eni 2100 mm olan liftin qarşısında -1,6 mdən;
- yükgötürmə qabiliyyəti 1000 kq-a qədər, kabinəsinin dərinliyi 2100 mm olan liftin qarşısında- 2,1 m-dən.

Liftlər iki sıra üz-üzə yerləşdiyi halda liftin qarşısındakı meydançanın eni ən azı aşağıda göstərilənlər qədər olmalıdır:

- kabinəsinin dərinliyi 2100 mm-dən az olan liftlər qurulduqda -1,8 m;
- kabinəsinin dərinliyi 2100 mm və daha çox olan liftlər qurulduqda-2,5 m.

**4.11.** İnsanlara zərərli təsir göstərən aşağıdakı obyektlər istisna olmaqla, yaşayış binasının zirzəmi, kürsülük, birinci və ikinci mərtəbələrində ictimai təyinatlı obyektlərin yerləşdirilməsinə yol verilir:

- istismarı zamanı yaşayış ərazisini və ətraf mühiti çirkləndirə bilən kimyəvi və digər məmulatların ixtisaslaşdırılmış satış mağazaları;
- partlayış və yanğın təhlükəli maddə və materiallar satılan mağazalar;
- sintetik xalça məmulatlarının, avtomobil şinlərinin satışı mağazaları;
- ixtisaslaşmış balıq mağazaları;
- müxtəlif təyinatlı anbarlar, o cümlədən topdansatış anbarları;
- saat 23:00-dan sonra iş rejimi olan bütün müəssisələr və mağazalar;
- tezalışan maddələrlə işləyən məişət xidməti müəssisələri, hamamlar, saunalar (mənzillərdəki fərdi saunalar istisna olmaqla);
- sahəsi 250 $m^2$-dən artıq, oturacaq yerlərinin sayı 50-dən çox olan yeməkxana və istirahət müəssisələri;
- camaşırxana və kimyəvi təmizləmə müəssisələri (qəbul məntəqələri və növbədə 75 kq-a qədər istehsal gücü olan özünəxidmət camaşırxanaları istisna olmaqla);
- ümumi sahəsi 100 $m^2$-dən artıq olan avtomat telefon stansiyaları;

- ictimai tualetlər;
- dini ayinləri keçirən müəssisələr;
- binanın hüdudları daxilində və ona bitişik inşa edilmiş transformator yarımstansiyaları;
- istehsalat sahələri (əlilliyi olan şəxslərin və ahıl insanların əməyindən istifadə edən müəssisələr, o cümlədən quraşdırma və dekorativ işlər emalatxanaları istisna olmaqla);
- baytarlıq klinikaları və kabinetləri;
- təbii və mayeləşdirilmiş qazdan yanacaq kimi istifadə edən cihazların yerləşdirilməsinin nəzərdə tutulduğu ictimai iaşə, ticarət, məişət xidməti və digər təyinatlı obyektlər.

Sintetik xalça məmulatlarının satışı mağazalarının yaşayış binalarının odadavamlılıq həddi REI 150 olan bütöv divarlarına bitişik tikilməsinə yol verilir.

Yaşayış binalarının birinci və ikinci mərtəbələrində, eləcə də hüdudları daxilində və onlara bitişik tikililərdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla tutumu 150 yerdən artıq olmayan məktəbəqədər təhsil müəssisələrinin yerləşdirilməsinə yol verilir.

Yaşayış binalarında, eləcə də həmin binalara bitişik tikililərdə ambulator-poliklinik tibb müəssisələrinin (kabinetlərin), o cümlədən: müalicə-sağlamlıq, reabilitasiya və bərpa müəssisələrinin, həmin mərkəzlərin nəzdində gündüz stasionarlarının yerləşdirilməsinə yol verilir. Yaşayış binalarında yerləşdirilən tibb müəssisələri binanın əsas hissəsindən əsaslı divarlarla ayrılmalı, müstəqil ventilyasiya, kanalizasiya sistemləri və xəstələr üçün ayrıca girişlə təchiz edilməlidir.

Yaşayış binalarında tibb müəssisələri Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin 2009-cu il 07 aprel tarixli 37 nömrəli əmri ilə təsdiq edilmiş "Tibb müəssisələrində sanitariya-epidemioloji tələblərə dair Qaydalar" nəzərə alınmaqla yerləşdirilməlidir.

Binaların zirzəmi, kürsülük, birinci və ikinci mərtəbələrində palatalı şöbələrin, elektrik şüası ilə müalicə şöbələrinin, doğum şöbəsinin, prosedur və həkim kabinetlərinin, dispanserlərin bütün növlərinin, travmatoloji məntəqələrin, təcili tibbi yardım yarımstansiyalarının, bakterioloji laboratoriyaların, dəri-zöhrəvi, ruhi-əsəb, yoluxucu xəstəliklər üzrə həkim qəbulu kabinetlərinin, şüa diaqnostikası kabinetlərinin (rentgen, kompüter tomoqrafiyası, nüvəmaqnit rezonans), şüa terapiyası, radioizotop diaqnostikası və müalicə şöbələrinin yerləşdirilməsinə yol verilmir.

*Qeyd. Dövlət sanitariya-epidemioloji xidmət orqanları ilə razılaşdırıldığı təqdirdə, yaşayış binalarında yerləşdirilən ambulator-poliklinik tibb müəssisələrində, üfüqi və şaquli istiqamətdə qonşu sahələr yaşayış təyinatı olmadığı halda şua diaqnostikası kabinetlərinin təşkilinə yol verilir.*

**4.12.** Yaşayış binalarının zirzəmi, kürsülük, birinci və ikinci mərtəbələrində və çardağında vibrasiya və səs-küy yaradan avadanlıqları olan müəssisələr yerləşdirilərkən və ya bu yerlərdə səs-küy yaradan avadanlıqlar yerləşdirilərkən Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 08 iyul tarixli 796 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları" nəzərə alınmaqla yerləşdirilməlidir.

**4.13.** Yaşayış binalarının kürsülük və zirzəmi mərtəbələrində tezalışan və yanar mayelərin və mayeləşdirilmiş qazların (zirzəmilərdə isə həmçinin təbii qazların), partlayıcı maddələrin, yanacaq materiallarının (7.1.14-cü yarımbənddə qeyd olunanlardan başqa) saxlanması, emal olunması və müxtəlif qurğularda istifadə olunması üçün nəzərdə tutulmuş otaqların; uşaqlar üçün məşğələ, dərnək və əyləncə otaqlarının; 50 nəfərdən çox tutumu olan zalların yerləşdirilməsinə yol verilmir.

Bu mərtəbələrdə digər obyektlər yerləşdirilərkən Normaların 4.11-ci bəndində müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmalıdır.

**4.14.** Həyət tərəfdən girişi olan və yaşayış otaqlarının pəncərələri həyətə açılan yaşayış binalarında yerləşən ictimai təyinatlı obyektlərin həyət tərəfdən müxtəlif yüklərlə yüklənib boşaldılması yolverilməzdir.

Yaşayış binasının hüdudlarında yerləşən ictimai təyinatlı obyektlərin yüklənib boşaldılması, binanın pəncərələri olmayan yan fasad tərəfindən, yeraltı tunellərdən, xüsusi yük vurma hissəsi olduğu halda magistral küçə tərəfdən aparılmalıdır.

Binanın hüdudlarındakı ictimai təyinatlı obyektin sahəsi 150 $m^2$-dən az olduğu halda yükvurma hissəsinin nəzərdə tutulmamasına yol verilir.

**4.15.** Yaşayış binasının sonuncu mərtəbəsində rəssam və memarlar üçün emalatxanalar, həmçinin işçilərin sayı 5 nəfərdən çox olmayan ofis otaqları yerləşdirilə bilər. Bu zaman Normaların 7.2.13-cü yarımbəndinin tələbləri nəzərə alınmalıdır.

Hündürlüyü 28 m-dək və ən azı II odadavamlılıq dərəcəsi olan binaların mansarda mərtəbələrində ofis otaqlarının yerləşdirilməsinə yol verilir.

**4.16.** Yaşayış binasının hüdudları daxilində şəhərsalma və tikintiyə dair müvafiq normativ sənədlərin tələblərinə uyğun avtomobil duracaqlarının təşkilinə yol verilir.

**4.17.** Çoxmənzilli yaşayış binalarının istismar olunan yastı damlarında, həmçinin mənzildənkənar terraslarda, yaşayış binalarının arasında yerləşən birləşdirici elementlərdə, o cümlədən açıq qeyriyaşayış mərtəbələrində (birinci və mərtəbələrarası) həmin binaların sakinləri üçün müxtəlif təyinatlı sahələrin (sakinlərin dincəlməsi, paltar qurudulması və təmizlənməsi və s.) yerləşdirilməsinə yol verilir.

**4.18.** Yaşayış binalarında ünvan poçt qutuları aşağıda göstərildiyi kimi yerləşdirilməlidir:

- liftlər olduqda - vestibüllərdə, lift hollarında və ya liftlərə keçidlərdə;

-liftlər olmadıqda-vestibüllərdə, birinci mərtəbənin əsas və ya aralıq pilləkən meydançalarında və pilləkən keçidlərində.

Ünvan qutuları yerləşdirilərkən, onların qabarit ölçüləri nəzərə alınmalıdır və keçidlərin normativ parametrləri təmin olunmalıdır. Ünvan qutuları döşəmədən 0,6 m-dən az olmayan hündürlükdə birbaşa divardan asılır və ya divar oyuqlarında yerləşdirilir. Abonent qutuları yerləşdirilən yerlər işıqlandırılmalıdır.

## 5. Mənzillərə və onların elementlərinə dair tələblər

**5.1.** Dövlət və bələdiyyə mənzil fondunun yaşayış binalarında mənzillərin, otaqların sayına və sahəsinə görə minimal ölçülərinin cədvəl 1 əsasında (balkonların, terrasların, eyvanların, lociyaların, şüşəbəndlərin, isidilməyən köməkçi otaqların və mənzilin tamburunun sahələri nəzərə alınmamaq şərtilə) qəbul edilməsi tövsiyə olunur.

*Cədvəl 1*

| Yaşayış otaqlarının sayı | 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|---|
| Mənzillərin tövsiyə edilən ümumi sahəsi, $m^2$ | | | | | | |
| şəhər, qəsəbə | 28-38 | 44-53 | 56-65 | 70-77 | 84-96 | 103-109 |
| kənd | 38-44 | 50-60 | 66-76 | 77-89 | 94-104 | 106-116 |

Özəl mənzil fonduna aid yaşayış binalarındakı mənzillərin sahəsi, otaqların sayı və tərkibi sifarişçi tərəfindən müəyyən edilir.

**5.2.** Mənzillərdə yaşayış otaqları və yardımçı sahələr: mətbəx (və ya taxça-mətbəx), holl, vanna otağı (və ya duş) və tualet (və ya birləşdirilmiş sanitar qovşağı), yığnaq otağı (və ya divar təsərrüfat şkafı) nəzərdə tutulmalıdır.

**5.3.** Mənzillərdə otaq sayının və tərkibinin (təyinatının) müəyyənləşdirilməsi sifarişçi tərəfindən layihə tapşırığında müəyyən edilir.

**5.4.** Azərbaycan Respublikasının iqlim şəraitində yaşayış binalarında lociya və balkonların layihələndirilməsi zəruridir. Bu zaman lociya və balkonların layihələndirilməsi üçün əlverişsiz şərait və hallar nəzərə alınmalıdır.

Lociya və balkonların layihələndirilməsi üçün əlverişsiz hallar:

- nəqliyyat magistrallarından və ya sənaye ərazilərindən gələn səs-küyün səviyyəsi yaşayış binalarının fasadının qarşısında 75 dB və daha artıq olduqda;
- yay aylarında 15 gün və daha artıq müddətə havadakı tozun miqdarı 1,5 $mq/m^3$ və daha artıq olduqda.

**5.5.** Yaşayış binalarında yaşayış otaqlarının (otaq, qonaq otağı və yataq otağı) kürsülük və zirzəmi mərtəbələrində yerləşdirilməsi yolverilməzdir.

**5.6.** Mənzilin yaşayış otaqlarının və digər sahələrinin ölçüləri erqonomikanın tələblərinə uyğun yerləşdirilən zəruri avadanlıq və mebelin yerləşdirilməsindən asılı olaraq müəyyənləşdirilir.

**5.7.** Normaların 5.2-ci bəndində göstərilmiş mənzillərdə otaqların sahəsi aşağıdakılardan az olmamalıdır:

- birotaqlı mənzildə ümumi otaq - 15 $m^2$-dən;
- birotaqlı mənzillərin girişində qarderob – 2,5 $m^2$-dən;
- iki və daha çox otaqlı mənzillərdə ümumi otaq - 16 $m^2$-dən;
- yataq otağı - 8 $m^2$ (iki adama - 10 $m^2$-dən);
- mətbəx - 8 $m^2$-dən;
- mətbəx-yemək otağında mətbəx zonası - 6 $m^2$-dən.

Birotaqlı mənzillərdə sahəsi 5 $m^2$-dən az olmayan taxça-mətbəxin layihələndirilməsinə yol verilir.

Mansarda mərtəbəsində (və ya maili xarici divarı olan mərtəbədə) yataq otağı və mətbəxin sahəsinin 7 $m^2$-dən az olmamaqla qəbul edilməsinə yol verilir, bu halda ümumi yaşayış otağının sahəsi 16 $m^2$-dən az olmamalıdır.

**5.8.** Yaşayış otaqlarının və mətbəxin hündürlüyü 2,7 m-dən az olmamalıdır.

Mansarda mərtəbələrinin yüksək hissəsində hündürlüyü (döşəmədən tavanadək) 2,7 m-dən az olmamalıdır.

Mənzildaxili dəhlizlərin, holların, antresolların (və onların alt hissələrinin) hündürlükləri insanların hərəkətinin təhlükəsizliyini təmin etmək şərtilə 2,1 m-dən az olmamalıdır.

**5.9.** Mənzillərdə yataq otaqları digər otağa keçid kimi layihələndirilməməlidir.

**5.10.** Mənzillərdə nəzərdə tutulan avadanlığın tərkibi sifarişçi tərəfindən layihə tapşırığında müəyyən edilir.

Dövlət və bələdiyyə sosial təyinatlı və xüsusi təyinatlı mənzil fondunun birotaqlı mənzillərində birləşdirilmiş sanitar qovşağının layihələndirilməsinə yol verilir.

**6. Konstruksiyaların yükdaşıma və buraxıla bilən deformasiya qabiliyyətləri**

**6.1.** Çoxmənzilli yaşayış binasının konstruksiyaları və qrunt əsasları aşağıdakı yüklərin təsirinə hesablanmalıdır:

- yükdaşıyan və qoruyucu konstruksiyalarının öz çəkilərindən daimi yüklərin təsirlərinə;
- mərtəbəarası örtüklərə yayılmış və topa yüklərin müvəqqəti təsirinə;
- tikinti rayonu üçün xarakterik olan qısamüddətli yağıntıların (qar,yağış, dolu), zəlzələ, külək, və temperatur-iqlim yüklərinin təsirlərinə.

Göstərilən yüklərin normativ qiymətləri, yüklərin əlverişsiz birləşmələri və buna uyğun qüvvələr, konstruksiyaların əyilmə və yerdəyişmələrinin həddi göstəriciləri, yük üzrə etibarlılıq əmsallarının göstəriciləri AzDTN 2.1-1-in tələblərinə uyğun qəbul edilməlidir.

Binaların qrunt əsasları və konstruksiyaları hesablanarkən, həmçinin sifarişçinin layihə tapşırığında göstərilmiş əlavə tələbləri (məsələn, buxarının (kaminin) yerləşdirilməsi, yaşayış binasına bitişik inşa edilmiş ictimai təyinatlı obyektlərin ağır avadanlıqlarının yerləşdirilməsi və ya interyerin ağır avadanlıq elementlərinin divarlara və tavana bərkidilməsi) nəzərə alınmalıdır.

**6.2.** Layihələndirmədə istifadə edilən konstruksiyaların yükdaşıma qabiliyyətinin və deformasiyaya uğrama dərəcəsinin hesablanma metodları AzDTN 2.16-1, AzDTN 2.18-1, AzDTN 2.171, AzDTN 2.19-1 tələblərinə cavab verməlidir.

**6.3.**Binaların bünövrələri torpağın fiziki-mexaniki xüsusiyyətləri, tikinti meydançasındakı hidrogeoloji rejimin xüsusiyyətləri, həmçinin qruntun, yeraltı suların bünövrəyə və yeraltı mühəndis şəbəkəsinə qarşı aqressivlik dərəcəsi, tikinti ərazisinin seysmikliyi nəzərə alınmaqla layihələndirilməlidir və binanın bünövrəsi altında qrunt əsaslarının tələb olunan bərabər çökməsini təmin etməlidir.

**6.4.**Yaşayış binasında yenidənqurma işləri aparılarkən, konstruksiyaların faktiki vəziyyətləri, həmçinin əlavə yük və təsirlər nəzərə alınmaqla, binanın qoruyucu və yükdaşıyan konstruksiyaları, bünövrəaltı qrunt əsasları yenidən hesablanmalıdır.

**6.5.**Yaşayış binasında yenidənqurma işləri aparılarkən onun konstruktiv sxemində bu binanın istismarı prosesində aşkar edilən dəyişikliklər (o cümlədən ilkin layihədə nəzərdə tutulmamış yeni qapı və pəncərə boşluqlarının açılması, həmçinin konstruksiyaların təmiri və ya gücləndirilməsinin təsirləri) nəzərə alınmalıdır.

**6.6.**Yaşayış binalarında sanitar-texniki qovşaqların yerlərinin dəyişdirilməsi ilə aparılan yenidənqurma işləri zamanı səs-küy, hidroizolyasiya və vibroizolyasiya üzrə əlavə tədbirlər yerinə yetirilməli, zəruri hallarda həmin sanitar-texniki qovşaqların avadanlığının yerləşdirilməsi nəzərdə tutulan mərtəbələrarası örtük konstruksiyaları gücləndirilməlidir.

**7. Yanğın və digər fövqəladə hallarda binaların təhlükəsizliyi**

**7.1. Yanğın təhlükəsizliyinin təmin edilməsi.**

7.1.1. Çoxmənzilli yaşayış binalarının və yataqxanaların yanğın təhlükəsizliyi DTN 2.02-01-in tələblərinə uyğun və Normalarda müəyyən edilmiş qaydalara əsasən təmin edilməlidir.

**7.1.2.** Yaşayış binalarının yolverilən hündürlüyü və yanğın bölməsi hüdudlarında mərtəbənin sahəsi odadavamlılıq dərəcəsindən və konstruktiv yanğın təhlükəsi sinfindən asılı olaraq cədvəl 2 üzrə müəyyən edilir.

Cədvəl 2

| Binanın odadavamlılıq dərəcəsi | Binanın konstruktiv yanğın təhlükəliyi sinfi | Binanın yolverilən ən böyük hündürlüyü, m | Yanğın bölməsi hüdudlarında mərtəbənin yol verilən ən böyük sahəsi, $m^2$ |
|---|---|---|---|
| I | C0 | 75 | 2 500 |
| II | C0<br>C1 | 50<br>28 | 2 500<br>2 200 |
| III | C0<br>C1 | 28<br>15 | 1 800<br>1 800 |
| IV | C0<br><br>C1<br><br>C2 | 5<br>3<br>5<br>3<br>5<br>3 | 1 000<br>1 400<br>800<br>1 200<br>500<br>900 |
| V | Normalaşdırılmır | 5<br>3 | 500<br>800 |
| *Qeyd. Binanın isidilməyən yerləşkələrində odadavamlılıq dərəcəsi, onun isidilən hissəsinin odadavamlılıq dərəcəsinə görə qəbul edilməlidir.* | | | |

**7.1.3.** I, II, III odadavamlılıq dərəcəsi olan binaların üstündə cədvəl 2-də təyin edilmiş bina hündürlüklərindən asılı olmayaraq (75 m-dən hündür olmamaq şərti ilə), yükdaşıyan elementlərinin yanğın təhlükəliyi sinfi K0 və odadavamlılıq həddi R 45-dən çox olan bir mansarda mərtəbəsinin inşa edilməsinə yol verilir. Bu mansarda mərtəbəsinin qoruyucu konstruksiyaları, həmin binanın konstruksiyalarına olan tələblərə cavab verməlidir.

Ağac konstruksiyalardan istifadə edildikdə göstərilən tələblərə cavab verən konstruktiv oddan mühafizə nəzərdə tutulmalıdır.

**7.1.4.** I, II, III odadavamlılıq dərəcəsi olan qalereya tipli binaların qalereya konstruksiyalarının yanğın təhlükəliyi sinfi K0, odadavamlılığının R əlaməti üzrə son həddi bu binaların dam örtüyü üçün qəbul edilmiş yanğın əleyhinə tələblərə uyğun olmalıdır. IV odadavamlılıq dərəcəsi olan binalarda qalereya konstruksiyalarının yanğın təhlükəliyi sinfi K0 və R15-dən az olmayan odadavamlılıq həddi olmalıdır.

**7.1.5.** IV odadavamlılıq dərəcəsi olan ikimərtəbəli binaların yükdaşıyan elementlərinin odadavamlılıq həddi R30-dan aşağı olmamalıdır.

**7.1.6.** Seksiyalararası divar və arakəsmələr, həmçinin mənzildən kənar dəhlizləri, holları və vestibülləri digər sahələrdən ayıran divar və arakəsmələr cədvəl 3-də verilmiş tələblərə uyğun olmalıdır. Seksiyalararası və mənzillərarası divar və arakəsmələr bütöv (pəncərəsiz və qapısız) olmalı və DTN 2.02.01-in tələblərinə cavab verməlidir.

Cədvəl 3

| Qoruyucu konstruksiya | Aşağıda göstərilən odadavamlılıq dərəcəsi və konstruktiv yanğın təhlükəliyi sinfi olan binalar üçün konstruksiyanın | | |
|---|---|---|---|
| | odadavamlılığının minimal həddi və yolverilən yanğın təhlükəliyi sinfi | | |
| | I-III, C0 və C1 | IV-V, C0 və C1 | IV-V, C2 və C3 |
| Seksiyaarası divar | REI 45, K0 | REI 45, K0 | REI 45, K1 |
| Seksiyaarası arakəsmə | EI 45, K0 | EI 45, K0 | EI 30, K1 |
| Mənzilarası divar | REI 30, K0* | REI 15, K0* | REI 15, K1 |
| Mənzilarası arakəsmə | EI 30, K0* | EI 15, K0* | EI 15, K1 |
| Mənzildənkənar dəhlizləri digər sahələrdən ayıran divar | REI 45, K0* | REI 15, K0* | REI 15, K1** |
| Mənzildənkənar dəhlizləri digər sahələrdən ayıran arakəsmə | EI 45, K0* | EI 15, K0* | EI 15, K1** |

* C1 sinifli binalar üçün K1-ə yol verilir.
** C2 sinifli binalar üçün K2-ə yol verilir.

**7.1.7.** Otaqlararası arakəsmələrin odadavamlılıq həddi normalaşdırılmır. Şkaflararası, yığılıbaçılan və hərəkət edən arakəsmələrin yanğın təhlükəliyi sinfi normalaşdırılmır. Digər arakəsmələrin, o cümlədən qapıları olan arakəsmələrin yanğın təhlükəliyi sinfi DTN 2.02-01-in tələblərinə uyğun olmalıdır.

**7.1.8.** II odadavamlılıq dərəcəsi olan beş mərtəbəyədək binaların, həmçinin III və IV odadavamlılıq dərəcəsi olan binaların zirzəmi və kürsülük mərtəbələrindəki köməkçi otaqlar arasındakı arakəsmələrin odadavamlılıq həddinin və yanğın təhlükəliyi sinfinin normalaşdırılmamasına yol verilir. Zirzəmi və kürsülük mərtəbələrin texniki dəhlizi (həmçinin kommunikasiyalar üçün nəzərdə tutulan) digər sahələrdən ayıran arakəsmələr 1-ci tip yanğın əleyhinə olmalıdır.

**7.1.9.** Yaşayış binalarında texniki, zirzəmi, kürsülük mərtəbələri və çardağı 1-ci tip yanğın əleyhinə arakəsmələrlə 500 $m^2$-dən böyük olmayan hissələrə, seksiyalı binalarda isə seksiyalar üzrə bölmək lazımdır.

**7.1.10.** Üç və daha çox mərtəbəli binalarda lociya və balkonların məhəccərləri, həmçinin I, II, III odadavamlılıq dərəcəsi olan beşmərtəbəli və daha hündür binaların xaricində qurulan gündən qorunma konstruksiyaları yanmayan materiallardan hazırlanmalıdır.

**7.1.11.** İctimai təyinatlı sahələr binanın yaşayış hissəsindən 1-ci tip yanğın əleyhinə arakəsmələrlə və 3-cü tip açıq boşluqları olmayan dam örtükləri ilə, I odadavamlılıq dərəcəsi olan binalarda isə 2-ci tip dam örtükləri ilə ayrılmalıdır.

**7.1.12.** Tullantı qəbuledici kamera yaşayış binasının girişindən divarla ayrılmalı və onun ayrıca girişi olmalıdır. Kamera odadavamlılıq həddi REI 60-dan az olmayan və yanğın təhlükəliyi sinfi K0 olan yanğın əleyhinə arakəsmələr və dam örtüyü ilə əhatələnməlidir.

**7.1.13.** Binaya bitişik inşa edilən obyektin dam örtüyünün yükdaşıyan konstruksiyalarının odadavamlılıq həddi R 45-dən və yanğın təhlükəliyi sinfi K0-dan aşağı olmamalıdır.

Yaşayış binasının ona bitişik inşa edilmiş obyektə tərəf açılan pəncərələri olduğu halda, kəsişmə yerlərində dam örtüyünün səviyyəsi binanın yaşayış otaqlarının döşəməsinin səviyyəsindən hündür olmamalıdır. Dam örtüyünün istilik qatı yanmayan materiallardan olmalıdır.

**7.1.14.** Kürsülük və birinci mərtəbələrdə bərk yanacaq anbarlarının yerləşdirilməsinə yol verilir. Onlar digər sahələrdən 1-ci tip yanğınəleyhinə arakəsmələrlə və 3-cü tip örtük qatı ilə ayrılmalıdır. Bu anbarlardan xaricə birbaşa çıxış olmalıdır.

**7.2. Təxliyyənin təmin edilməsi**

**7.2.1.** Mənzillərin qapılarından pilləkən qəfəsinə və ya çıxışa qədər ən böyük məsafənin cədvəl 4 üzrə qəbul edilməsinə yol verilir.

Yaşayış binasının seksiyasında mənzildən dəhlizə (hola) çıxış zamanı binanın kəllə divarında ən azı 1,2 m$^2$ sahəsi olan pəncərə olmadıqda, ən uzaqda olan mənzilin qapısından tüstülənməyən pilləkən qəfəsinin hava zonasına aparan, bilavasitə pilləkən qəfəsinin və ya tamburun çıxışına qədər məsafə 12 m-dən çox olmamalıdır, pəncərə və ya dəhlizdən (holdan) tüstünü kənarlaşdıran qurğu olduğu halda isə bu məsafə cədvəl 4 üzrə, bir tərəfi bağlı dəhlizə çıxış kimi qəbul edilməsinə yol verilir.

Cədvəl 4

| Binanın odadavamlılıq dərəcəsi | Binanın konstruktiv yanğın təhlükəliyi sinfi | Mənzilin qapısından çıxışa qədər ən böyük məsafə, m | |
|---|---|---|---|
| | | pilləkən qəfəsləri və ya xarici girişlər arasında yerləşdiyi halda | bir tərəfi bağlı dəhlizə və ya qalereyaya çıxışlarda |
| I, II | C0 | 40 | 25 |
| II | C1 | 30 | 20 |
| III | C0<br>C1 | 30<br>25 | 20<br>15 |
| IV | C0<br>C1,<br>C2 | 25<br>20 | 15<br>10 |
| V | Normalaşdırılmır | 20 | 10 |

**7.2.2.** Dəhlizin eni: pilləkənlər arası və ya pilləkənlə binanın yan divarı arasında dəhlizin uzunluğu 40 m-ə qədər olduqda - 1,4 m-dən, 40 m-dən artıq olduğu halda - 1,6 m-dən az olmamalıdır. Qalereyanın eni ən azı 1,2 m olmalıdır. Dəhlizləri bir-birindən və dəhlizin baş tərəflərindən ən çoxu 30 m məsafədə yerləşən, qapı örtücüləri ilə təchiz edilmiş qapıları olan, odadavamlılığı EI 30 olan arakəsmələrlə ayırmaq lazımdır.

**7.2.3**. Pilləkən qəfəslərində və lift hollarında şüşə qapıların qoyulmasına yol verilir, bu halda armaturlaşdırılmış və ya digər növ zərbəyədavamlı şüşələmədən istifadə edilməlidir.

**7.2.4.** Mərtəbədən təxliyə çıxışlarının sayı və pilləkən qəfəslərinin tipi DTN 2.02-01 üzrə qəbul edilməlidir.

**7.2.5.** Qalereya tipli yaşayış binalarında mərtəbədəki mənzillərin ümumi sahəsi 500 $m^2$-ə qədər və binanın hündürlüyü 28 m-dən çox olduqda tüstülənməyən N1, N2 və ya N3, 28 m-dən az olduqda hər mərtəbədə xarici divarlarında şüşələnmiş və ya açıq boşluqları olan L1 tipli bir pilləkən qəfəsinin layihələndirilməsinə, pilləkən qəfəsindən qalereyanın (dəhlizin) ən uzaq məsafəsindəki kəllə hissələrindən ikinci mərtəbənin döşəməsi səviyyəsinə qədər aparan 3-cü tip bayir pilləkəninə çıxışın nəzərdə tutulması şərtilə yol verilir.

**7.2.6.** Mərtəbədə mənzillərin ümumi sahəsi, seksiya tipli binalarda isə seksiya mərtəbəsi 500 $m^2$dən çox olduğu halda təxliyə ən azı iki pilləkən qəfəsi vasitəsi ilə (adi və ya tüstülənməyən) həyata keçirilməlidir.

Yaşayış binalarında seksiya mərtəbəsindəki (dəhliz tipli, qalereya tipli evin mərtəbəsindəki) mənzillərin ümumi sahəsi 500-dən 550 $m^2$-ə qədər olduğu halda mənzillərdən bir təxliyə çıxışının qurulmasına aşağıdakı şərtlərlə yol verilir:

- sonuncu mərtəbənin yerləşdiyi hündürlük 28 m-dən çox olmadıqda - adi pilləkən qəfəsinə, mənzillərin giriş otaqlarının ünvanlı yanğın siqnalizasiyası xəbərvericiləri ilə təchiz edilməsi şərti ilə;
- sonuncu mərtəbənin yerləşdiyi hündürlük 28 m-dən çox olduqda - bir tüstülənməyən pilləkən qəfəsinə, mənzillərin bütün otaqlarının (sanitar qovşaqlarından, vanna otaqlarından, duş və paltaryuma otaqlarından başqa) ünvanlı yanğın siqnalizasiyası xəbərvericiləri və ya avtomatik yanğınsöndürənlə təchiz edilməsi şərti ilə.

**7.2.7.** Çoxsəviyyəli mənzillərdə hər mərtəbədən pilləkən qəfəsinə çıxışların nəzərdə tutulmamasına aşağıdakı şərtlərlə yol verilir: mənzilin otaqları 18 m-dən aşağı səviyyədə olmalı və mənzilin pilləkən qəfəsinə bilavasitə çıxışı olmayan mərtəbəsi DTN 2.02-01-ə uyğun qəza çıxışı ilə təmin olunmalıdır. Mənzildaxili pilləkənin ağac materialından hazırlanmasına yol verilir.

**7.2.8.** N1 tipli pilləkən qəfəsinin xarici hava zonasına çıxışa liftin holundan keçməklə yol verilir, bu zaman liftin şaxtasının və qapılarının qurulması DTN 2.02-01-in tələblərinə uyğun olmalıdır.

**7.2.9.** Hündürlüyü 50 m-dək və seksiya mərtəbəsində mənzillərin ümumi sahəsi 500 $m^2$-ə qədər olan binalarda təxliyyə çıxışının tüstülənməyən N2 və ya N3 tipli pilləkən qəfəsinə, binada liftlərdən birinin yanğın söndürən bölmələrin daşınmasını təmin etməsi və yanğın təhlükəsizliyi tələblərinə uyğun olması şərtilə, nəzərdə tutulmasına yol verilir. Bu zaman N2 tipli pilləkən qəfəsinə çıxış tambur (və ya liftin holu) vasitəsi ilə nəzərdə tutulmalı, pilləkən qəfəsinin, liftin şaxtalarının, tamburların qapıları isə 2-ci tip yanğın əleyhinə olmalıdır.

**7.2.10.** Hündürlüyü 28 m-dən artıq olan seksiya tipli binalarda tüstülənməyən pilləkən qəfəslərindən (N1, N2 və ya N3 tipli) çıxışın, yanaşı dəhlizlərdən 1-ci tip yanğın əleyhinə arakəsmələrlə ayrılan (2-ci tip yanğın əleyhinə qapıları olan) vestibül vasitəsi ilə (ona avtomobil dayanacaqlarından və ümumi təyinatlı sahələrdən çıxışlar olmadığı halda) layihələndirilməsinə yol verilir. Bu zaman tüstülənməyən N1 tipli pilləkən qəfəsinin vestibül ilə əlaqəsi hava zonası vasitəsi ilə təşkil olunmalıdır. Birinci mərtəbədə hava zonasının metal şəbəkə ilə bağlanmasına yol verilir. Mənzildən tüstülənməyən N1 tipli pilləkən qəfəsinə gedən yolda ən azı iki (mənzilin qapıları nəzərə alınmır) ardıcıl yerləşmiş, özüörtülən qapılar olmalıdır.

**7.2.11.** Üç və daha çox mərtəbəli binalarda zirzəmilərdən, kürsülük mərtəbələrindən və yeraltı texniki sahədən çıxışlar ən azı 100 m-dən bir yerləşdirilməli və onların binanın yaşayış hissəsinin pilləkən qəfəsləri ilə əlaqələri olmamalıdır.

Beş mərtəbəyədək binalarda zirzəmi və kürsülük mərtəbələrindən binanın yaşayış hissəsinin pilləkən qəfəsləri vasitəsi ilə çıxışların qurulmasına yol verilir. Bu çıxışlar birinci mərtəbədə yaşayış hissəsinin çıxışından 1-ci tip yanğın əleyhinə arakəsmələrlə ayrılmalıdır.

Texniki mərtəbələrdən çıxışlar DTN 2.02-01-ə uyğun nəzərdə tutulmalıdır.

Binanın orta və ya yuxarı hissələrində yerləşən texniki mərtəbələrdən çıxışların ümumi pilləkən qəfəsləri vasitəsi ilə, tüstülənməyən N1 tipli pilləkən qəfəsləri olan binalarda isə hava zonası vasitəsi ilə həyata keçirilməsinə yol verilir.

**7.2.12.** Mansarda mərtəbələrindən DTN 2.02-01-in tələblərinə uyğun dama qəza çıxışları qurularkən, 3-cü tip pilləkənə və P2 tipli yanğın nərdivanına aparan, məhəccərləri DÜİST 25772-in tələblərinə uyğun meydança və keçidlər nəzərdə tutulmalıdır.

**7.2.13.** İctimai təyinatlı sahələrin binanın yaşayış hissəsindən təcrid olunmuş girişləri və təxliyyə çıxışları olmalıdır.

Yuxarı mərtəbələrdə rəssam və memarların emalatxanaları, həmçinin idarələr yerləşdirildikdə, binanın yaşayış hissəsindəki pilləkən qəfəsinin ikinci təxliyyə çıxışı kimi qəbul edilməsinə yol verilir. Bu zaman həmin mərtəbələrin pilləkən qəfəsi ilə əlaqəsi yanğın əleyhinə qapıları olan tambur vasitəsi ilə həyata keçirilməlidir. Tamburun pilləkən qəfəsinə çıxan qapısı içəridən bayıra açılmalıdır.

Birinci və kürsülük mərtəbələrində yerləşən, ümumi sahəsi 300 $m^2$-dən, işçilərinin sayı 15 nəfərdən artıq olmayan ictimai təyinatlı sahələrdən təxliyyə çıxışları DTN 2.02-01 üzrə yerinə yetirilməlidir.

**7.2.14.** İnşa edilən üç və daha çox mərtəbəli yaşayış binalarında mühəndis kommunikasiyaları dayaqlarının (istilik təchizatı, təsərrüfat-içməli, yanğına qarşı, isti su təchizatı və suaxıdıcı) və sərf hesablayıcı sayğacların quraşdırılması üçün pilləkən qəfəslərində, qoruyucu konstruksiyaları yanmayan materiallardan hazırlanmış, kommunikasiya şaxtaları nəzərdə tutulmalıdır. Bu şaxtalar təbii və ya mexaniki ventilyasiya ilə təchiz edilməlidir.

**7.3. Binaların mühəndis sistemlərinə və avadanlığına olan yanğından mühafizə tələbləri**

**7.3.1.** Binaların tüstü əleyhinə mühafizəsi AzDTN 2.12-2-yə uyğun olaraq aparılmalıdır. Hündürlüyü 28 m-dən artıq, tüstülənməyən pilləkən qəfəsləri olan binalarda mərtəbələrdəki dəhlizlərdən, onların hər 30 m uzunluğuna bir şaxta qurulması hesabı ilə, sorma qurğusu və qoruyucu klapanları olan xüsusi şaxtalar vasitəsi ilə tüstünün çıxarılması həyata keçirilməlidir. Hər tüstükənarlaşdıran şaxta üçün ayrıca (avtonom) ventilyator nəzərdə tutulmalıdır. Tüstükənarlaşdıran şaxtaların odadavamlılıq həddi EI 60-dan az olmamalıdır.

Hündürlüyü 28 m-dən artıq olan binaların lift şaxtalarında yanğın zamanı AzDTN 2.12-2-yə uyğun olaraq xarici havanın verilməsi təmin olunmalıdır.

**7.3.2.** Havavermə və tüstükənarlaşdırma ventilyasiya qurğuları I tip yanğın əleyhinə arakəsmələrlə ayrılmış ventilyasiya kameralarında yerləşdirilməlidir. Qoruyucu klapanların açılması və ventilyatorların işə düşməsi, mənzillərin girişlərində, mənzildən kənar dəhlizlərdə və ya hollarda, gözətçi otaqlarında quraşdırılmış xəbərvericilərdən avtomatik şəkildə, eyni zamanda mərtəbələrdəki yanğın kranı yerləşən şkaflarda quraşdırılmış basmadüymələrlə məsafədən idarə olunan şəkildə nəzərdə tutulmalıdır.

**7.3.3.** Binada avtomatik yanğın siqnalizasiyası olduğu halda gözətçi otağında, mənzildənkənar dəhlizlərdə və tullantı qəbuledici kameralarda tüstü xəbərvericiləri quraşdırılmalıdır.

Hündürlüyü 28 m-dən çox olan binalarda mənzillərin girişlərində istilik xəbərvericiləri quraşdırılmalıdır.

Mənzillərin və yataqxanaların yaşayış otaqlarında (sanitar qovşaqları, saunalar, paltaryuma otaqları istisna olmaqla) avtonom tüstü xəbərvericiləri quraşdırılmalıdır.

Mənzillərdə tüstü xəbərvericiləri quraşdırılarkən, avtonom xəbərvericilərin avtomatik yanğın siqnalvericiləri kimi istifadə edilməsinə yol verilir.

**7.3.4.** Yanğın barədə xəbərdarlıq bina və qurğularda yanğın zamanı insanların təxliyəsinin xəbər verilməsi və idarə edilməsi barədə təyin edilmiş sistemə uyğun yerinə yetirilməlidir.

**7.3.5.** Yaşayış binalarının və mənzillərin elektrik şəbəkələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"na uyğun olaraq avtomatik mühafizə sistemləri ilə təchiz edilməlidir.

**7.3.6.** Yaşayış binalarının qaz təchizatı sistemləri AzDTN 2.13-1-in tələblərinə uyğun nəzərdə tutulmalıdır.Yataqxanalarda (mərtəbənin sayından asılı olmayaraq) qaz mətbəx pilətələrinin və digər qaz cihazlarının quraşdırılmasına yol verilmir.

**7.3.7.** Yaşayış binalarında mətbəx pilətələri AzDTN 2.13-1 və AzDTN 2.12-2-nin tələblərinə uyğun quraşdırılmalıdır. Eyni zamanda,hündürlüyü 10 mərtəbədən çox olan (75 m-dən hündür olmamaq şərti ilə) binaların mətbəxləri təbii sormaya nəzarət edilən və məcburi sorulma etdirilə bilən ventilyasiya kanalları, tənzimlənən axın ventilyasiyası və nəfəsliyi olan pəncərə ilə təchiz olunmalıdır.

**7.3.8.** Yaşayış binalarının istilik və isti su təchizatı hər bir binanın istilik yüklərinə uyğun olaraq qazanxana qurğularının layihələndirilməsi üzrə AzDTN 2.12-1 normativ sənədinin tələblərinə görə yerləşdirilən qazanxanalar vasitəsi ilə yerinə yetirilməlidir. Bir neçə binadan ibarət yaşayış komplekslərinin istilik və isti su təchizatının mərkəzləşdirilmiş məhəllə qazanxanaları vasitəsi ilə yerinə yetirilməsi tövsiyə olunur.

Müstəsna hallarda, binaların mərkəzləşmiş və ya ayrıca qurulmuş (avtonom) istilik təchizatı sisteminə qoşulması mümkün olmadıqda təbii qazla işləyən, qapalı yanma kameralı istilik generatorları tətbiq olunmaqla mənzillərdə fərdi istilik təchizatı sisteminin nəzərdə tutulmasına yol verilir. İstilik generatorları və onların yerləşdirildiyi otaqlar AzDTN 2.13-1-in və AzDTN 2.12-2-nin tələblərinə cavab verməlidir.

Hündürlüyü 10 mərtəbədən çox olan(75 m-dən hündür olmamaq şərti ilə) yaşayış binalarında isə,qaz avadanlığının quraşdırılmasına və istismarına dair istehsalçı müəssisənin tələblərini nəzərə almaqla, açıq balkonlarda (lociyalarda) quraşdırılması şərtilə qapalı yanma kameralı istilik generatorlarının nəzərdə tutulmasına yol verilir.

Konstruktiv yanğın təhlükəliyi sinfi C0, I, II və III odadavamlılıq dərəcəsi olan və hündürlüyü beş mərtəbədən çox olmayan yaşayış binalarının mənzillərinin isti su təchizatı üçün təbii qazla işləyən açıq yanma kameralı suqızdırıcılarının tətbiq edilməsinə yol verilir.

**7.3.9.** İstilik generatorlarını ayrıca qeyri-yaşayış otaqlarında yerləşdirmək lazımdır. Bu zaman istilik generatorlarının cəmi istilik gücü 100 kVt-dan çox olmamalıdır. Cəmi istilik gücü 35 kVt-a qədər olan istilik generatorlarının mətbəxdə qurulmasına yol verilir.

İstilik generatorlarının (su qızdırıcılarının) tüstü boruları təbii sormaya nəzarət edilən fərdi tüstü bacalarına qoşulmalıdır.

İstilik generatorları aşağıda göstərilən hallarda yanacağın verilişini dayandıran təhlükəsizlik avtomatikası ilə təchiz edilməlidir:

- elektrik enerjisi verilişinin dayandırılması, odluğun alovunun sönməsi, mühafizə dövrələrinin nasaz olması, istilikdaşıyıcısının təzyiqinin yolverilən qiymətindən aşağı düşməsi və temperaturunun yolverilən yuxarı həddinin aşması, tüstünün kənarlaşdırılmasının pozulması.

Qaz aparatları quraşdırılmış mətbəx otaqlarının ventilyasiya sistemləri normativ hava dəyişmə mislini (bax: cədvəl-6 Qaz istifadə edən avadanlığı olan sahə) təmin etməli, açıq yanma kameralı istilik generatorlarının (suqızdırıcılarının) quraşdırıldığı otaqlarda isə tüstünün kənar edilməsi prosesinə təsir edəcək seyrəkliyə yol verməməlidir.

İstilik generatorlarının zirzəmidə yerləşdirilməsinə yol verilmir. İstilik generatoru yerləşən otağın 1 $m^3$ həcminə 0,03 $m^2$ şüşələnmə sahəsi olmaqla, havanı dəyişmək üçün yuxarı hissəsində nəfəsliyi və ya digər qurğusu olan pəncərəsi olmalıdır. Otağın həcmi istilik generatorlarının işlədilməsi və montaj işlərinin aparılması rahatlığının təmin edilməsi şərti ilə 15 $m^3$-dən az olmayaraq müəyyən edilməlidir.

Otağın hündürlüyü ən azı 2,2 m olmalıdır. Otağın qabaritləri 0,7 m-dən az olmayan keçidlərin qurulmasını təmin etməlidir.

İstilik generatorları qurulmalıdır:

- yanmayan (YN) və ya çətin yanan (Y1) materiallardan olan divarların yanında və ya divarların üstündə;
- üstü yanmayan (YN) və ya çətin yanan (Y1) materialla örtülmüş, yanan materiallardan olan divarlardan ən azı 3 sm aralı.

Döşəməüstü istilik generatorlarının altındakı döşəmə sahəsinin yanmayan (YN) və ya çətin yanan (Y1) materiallardan qoruyucu örtüyü olmalıdır. Həmin göstərilən divar və döşəmə örtük sahələri istilik generatoru korpusunun qabaritlərindən ən azı 0,1 m kənara çıxmalıdır.

İstilik generatorunun qaz pilətəsi və qabyuma çanağının üstündə yerləşdirilməsi yolverilməzdir.

Üfüqi xətt üzrə istilik generatorunun çıxan hissələri ilə avadanlıq (mətbəx avadanlığı) arasında məsafə ən azı 0,1 m olmalıdır.

**7.3.10.** Bərk yanacaqla işləyən istilik generatorlarının, bişirmə və isitmə sobalarının iki mərtəbəyədək hündürlüyü olan yaşayış binalarında (kürsülük mərtəbəsi sayılmır) nəzərdə tutulmasına yol verilir. Bərk yanacaq anbarlarının təsərrüfat tikililərində yerləşdirilməsi tövsiyə edilir.

**7.3.11.** İstilik generatorları, o cümlədən bərk yanacaqla işləyən sobalar və buxarılar, bişirmə pilətələri və bacalar AzDTN 2.12-2-nin tələblərinə uyğun konstruktiv tədbirlərin həyata keçirilməsi ilə qurulmalıdır. Sertifikatlı istilik generatorları və bişirmə sobaları, həmçinin istehsalçı müəssisənin təlimatında verilən təhlükəsizlik tələbləri nəzərə alınmaqla qurulmalıdır.

**7.3.12.** Tullantı qəbuledici kamera bütün sahə boyunca sprinklerli sulayanlar vasitəsi ilə qorunmalıdır. Sulayanların paylayıcı boru kəməri binanın təsərrüfat-içməli su şəbəkəsinə birləşdirilməli və yanmayan materiallardan istilik izolyasiya edilməlidir. Kamera qapısının istilik izolyasiyası olmalıdır.

**7.3.13.** İkimərtəbəli dörd və daha artıq mənzilli, odadavamlıq dərəcəsi V olan binaların pilləkən qəfəsinin həcmində çardağa çıxışı olan quru borunun qurulması nəzərdə tutulmalıdır.

Quru borunun səyyar yanğınsöndürmə texnikasına birləşdirilmək üçün ventillərlə və birləşdirici başlıqlarla təchiz edilmiş, xaricə çıxarılmış qol boruları (patrubkalar), çardaqda isə yanğın qoluna (rukavasına) birləşdirilmək üçün birləşdirici başlığı olmalıdır.

Göstərilən binaların paylaşdırıcı elektrik lövhələrində özüişədüşən odsöndürənlərin qurulması nəzərdə tutulmalıdır.

**7.3.14.** Liftlərin yerləşdirilməsi, lift şaxtalarının, lift hollarının, maşın şöbəsinin odadavamlılıq həddi DTN 2.02-01-in tələblərinə uyğun yerinə yetirilməlidir.

**7.3.15.** Sauna qurularkən nəzərə alınmalıdır:

- buxarxananın həcmi - 8 $m^3$-dən 24 $m^3$-ə qədər olmalı;
- temperatur 130°C çatdıqda, həmçinin 8 saat ara vermədən işlədikdə, avtomatik söndürücüsü olan sertifikatlı xüsusi soba olmalı;
- soba divarlardan ən azı 0,2 m aralı yerləşdirilməli;

- sobanın üstündə yanmayan istilik izoləedici lövhə qurulmalı;

- AzDTN 2.12-2-nin tələblərinə uyğun odu saxlayan qapağı (klapanı) olan ventilyasiya kanalı;

- buxarxanadan kənarda daxili su kəmərinə birləşdirilmiş quru boru qurulmalı;

-quru borunun diametri 1 $m^2$ divar səthinin sulanma intensivliyi 0,06 *l/san* -dən az olmamaqla, arakəsmələrin səthinə su axını bucağının 20-30$^o$ olması və quru boruda 150-200 mm aralıqda diametri 3-5 mm olan dəliklərin yerləşdirilməsi şərtilə müəyyən edilməlidir.

**7.4. Yanğının söndürülməsi və xilasetmə işlərinin təşkili**

**7.4.1.** Hündürlüyü 50 m-dən çox olmayan binalar üçün ikitərəfli keçidlərin eni ən azı 3,5 m, hündürlüyü isə ən azı 4,25 m qəbul edilməlidir. 50 m-dən hündür binalar üçün isə keçidlərin hündürlüyü ən azı 4,5 m olmalıdır. Binalarda pilləkən qəfəslərindən ikitərəfli çıxışlar bir-birindən 100 m-dən artıq olmayan məsafədə yerləşdirilməlidir.

Binanın hər iki tərəfində üzərində yanğın hidrantları olan su şəbəkəsi qurulduğu halda, pilləkən qəfəslərindən ikitərəfli çıxışların olması vacib sayılmır.

**7.4.2.** Zirzəmi və kürsülük mərtəbəsinin yanğın əleyhinə arakəsmələrlə ayrılmış hər bir bölməsində ölçüləri ən azı 0,9 × 1,2 m və çalası olan ən azı iki pəncərə nəzərdə tutulmalıdır. Pəncərələrin sahəsi hesablama əsasında, bu bölmələrin döşəməsinin sahəsinin 0,2 %-dən az olmamaq şərti ilə qəbul edilməlidir. Çalanın ölçüləri köpük generatorlarından odsöndürən məhlulun verilməsinə və tüstüsorucu vasitəsi ilə tüstünün sorulmasına imkan verməlidir (binanın divarı ilə çalanın kənarı arasında məsafə ən azı 0,7 m olmalıdır).

**7.4.3.** İripanelli binaların zirzəmilərinin və yeraltı texniki sahəsinin eninə divarlarında 1,6 m hündürlükdə qapı boşluqlarının qurulmasına yol verilir. Bu zaman qapı kəndarının hündürlüyü 0,3 mdən hündür olmamalıdır.

**7.4.4.** Yanğın əleyhinə su xətti TNvəQ 2.04.01 və AzDTN 2.11-1 sənədlərinə və xarici şəbəkələrə və qurğulara olan tələblərə uyğun yerinə yetirilməlidir.

**7.4.5.** Təsərrüfat-içməli su şəbəkəsində, hər bir mənzildə ilkin mərhələdə yanğın söndürmək üçün su sıçradanı olan şlanqın birləşdirilməsi üçün ayrıca bir kran nəzərdə tutulmalıdır. Şlanqın uzunluğu suyun mənzilin hər yerinə çatmasını təmin etməlidir.

**7.4.6.** Hündürlüyü 50 m-dən çox olan yaşayış binalarında liftlərdən biri yanğınsöndürmə heyətinin daşınmasını təmin etməlidir.

**8. İstismar zamanı təhlükəsizlik**

**8.1.** Yaşayış binası elə layihələndirilməli, tikilməli və təchiz edilməlidir ki, sakinlər binanın daxilində və binanın ətrafında hərəkət edərkən, binaya daxil olarkən (binadan çıxarkən), həmçinin binanın elementləri və mühəndis avadanlığından istifadə edərkən zədə alma təhlükəsinin qarşısı alınmış olsun.

**8.2.** Pilləkən marşlarının və panduslarının mailliklərı və eni, pillələrin hündürlüyü və pillə çıxıntılarının eni, pilləkən meydançalarının eni, pilləkəndə, zirzəmidə və istismar edilən çardaqdakı keçidlərin hündürlüyü, həmçinin qapı boşluqlarının ölçüləri sakinlərin hərəkətinin təhlükəsizliyini, mənzildəki otaqların və binada olan ictimai təyinatlı obyektlərin avadanlıqlarının rahat və təhlükəsiz yerdəyişməsini təmin etməlidir.

Pilləkən marşlarının minimal eni və maksimal mailliyi cədvəl 5 üzrə qəbul edilməlidir.

Binanın döşəmə səviyyələri müxtəlif olan sahələri arasındakı sınma nöqtələrində keçidlər təhlükəsiz olmalı, panduslar və sürahilər nəzərdə tutulmalıdır. Bir pilləkən marşında və ya fərqli

səviyyələrin sınma nöqtəsində pillələrin sayı 3-dən az, 18-dən çox olmamalıdır. Müxtəlif hündürlük və dərinlikli pillələri olan pilləkənlərin istifadəsi yolverilməzdir.

İkisəviyyəli mənzillərdə mənzildaxili pilləkən kimi vintvarı pilləkəndən və ya "dolanbac" pillələrindən istifadəyə yol verilir, bu zaman pillələrin orta hissəsində tapdağın eni 18 sm-dən az olmamalıdır.

Cədvəl 5

| Marşın adı | Minimal en, m | Maksimal maillik |
|---|---|---|
| Binaların yaşayış mərtəbələrinə aparan pilləkən marşları: | | |
| seksiya tipli binaların: | 1,05 | 1:1,5 |
| - ikimərtəbəli | 1,05 | 1:1,75 |
| - üç və daha çox mərtəbəli | 1,2 | 1:1,75 |
| - dəhliz və qalereya tipli binaların | | |
| Zirzəmi və kürsülük mərtəbələrinə aparan pilləkən marşları, həmçinin mənzildaxili pilləkənlərin marşları | 0,9 | 1: 1,25 |
| *Qeyd. Marşın eni məhəccərlər arası və ya məhəccər ilə divar arası məsafə ilə müəyyən edilir.* | | |

**8.3.** Pilləkən, balkon, lociya, terras, dam və yıxılma təhlükəsi olan digər yerlərdə məhəccərlərin hündürlüyü 1,2 m-dən az olmamalıdır. Daxili pilləkən marşları və meydançaların məhəccərlərinin sürahiləri olmalıdır.

Sürahiləri olan məhəccərlər arasıkəsilmədən davam etməli və AzDTN 2.1-1-in tələblərinə uyğun üfüqi yükləri qəbul etməyə hesablanmalıdır.

**8.4.** Binanın elementlərinin konstruktiv həlli zamanı (o cümlədən boşluqların yerləşdirilməsi, boruların konstruksiyalardan keçən hissələrinin germetikləşdirmə üsulları, ventilyasiya deliklərinin qurulması, istilik izolyasiyasının yerləşdirilməsi) gəmiricilərin daxil olmasının qarşısının alınması nəzərdə tutulmalıdır.

**8.5.** Mənzillərdəki buxarılar və sobalar AzDTN 2.13-1 və AzDTN 2.12-2-nin tələblərinə uyğun olmalıdır.

**8.6.** Yaşayış binalarında və bina ətrafı ərazilərdə kriminal hadisələr riskinin və onların nəticələrinin azaldılmasına yönəldilmiş, binada yaşayan insanların qorunmasını və qanuna zidd hərəkətlər nəticəsində baş verə bilən mümkün zərərin minimuma endirilməsini təmin edən tədbirlər nəzərdə tutulmalıdır. Bu tədbirlər layihə tapşırığında müəyyən edilir və partlayışdan mühafizə konstruksiyalarının, domofonların, kodlu qıfılların, mühafizə siqnalizasiya və videonəzarət sistemlərinin, birinci, kürsülük və yuxarı mərtəbələrdə, zirzəmilərdə pəncərə boşluqlarının, həmçinin zirzəmiyə, çardağa və digər sahələrə aparan giriş qapılarında mühafizə konstruksiyalarının qurulması və sair işləri əhatə edə bilər.

Ümumi təhlükəsizlik sistemi (televiziya nəzarəti, mühafizə siqnalizasiyası) yanğın əleyhinə avadanlığın sanksiyasız müdaxilədən və vandalizmdən mühafizəsini təmin etməlidir.

Mərtəbələrin sayı dörd və ya daha çox, iki və ya daha çox girişi olan yaşayış binalarında "Əhalinin sıx toplaşdığı yerlərdə və obyektlərdə videonəzarət sistemlərinin yaradılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 iyul 2010-cu il tarixli 131 nömrəli qərarına uyğun olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin videonəzarət sistemlərinin quraşdırılması nəzərdə tutulmalıdır.

Kriminal hadisələr riskinin və onların nəticələrinin azaldılmasına yönəldilmiş tədbirlərə istismar mərhələsində əlavələr edilməlidir.

**8.7.** Binanın gözətçi otağı (layihə tapşırığında nəzərdə tutulduğu halda) elə yerləşdirilməlidir ki, oradan vestibülün giriş qapısına, vestibül olmadıqda, liftə və pilləkənə aparan keçidə vizual baxış təmin olunsun. Gözətçi otağının yanında sanitar qovşağı nəzərdə tutulmalıdır.

**8.8.** Mülki müdafiə qurğularının yerləşdirilməsi sxemi üzrə müəyyənləşdirilmiş bir sıra binalarda layihə tapşırığına uyğun olaraq ikili funksional təyinatı olan sahələr layihələndirilməlidir.

**8.9.** Yaşayış binasının ildırımdan qorunma tədbirləri qüvvədə olan RS 34.21.122 normativ sənədinin tələblərinə uyğun layihələndirilir.

**8.10.** Yaşayış binalarının istismar olunan yastı dam örtüklərində AzDTN 2.1-1-in tələblərinə uyğun təhlükəsizliyin təmin olunması məqsədilə hündürlüyü 1,2 m və yüksaxlama qabiliyyəti olan məhəccərlərin qurulması, ventilyasiya çıxışlarının və damda yerləşən digər mühəndis qurğularının qorunması üzrə tədbirlər həyata keçirilməlidir.

**8.11**. Elektrik lövhəsi yerləşən otağı, baş rabitə stansiyalarının yerləşdiyi otaqları, kabel televiziyasının texniki mərkəzlərini, siqnal transformator yarımstansiyalarını, həmçinin telefon paylayıcı şkafları nəm proseslər gedən sahələrin (vanna, sanitar qovşağı) altında yerləşdirmək olmaz.

**8.12.** Baş rabitə stansiyalarının, texniki mərkəzlərin, səsli transformator yarımstansiyalarının küçədən birbaşa girişi olmalıdır; elektrik şəbəkəsinin lövhəsi yerləşən otağın (o cümlədən rabitə avadanlığı, elektrik ötürmə avtomatlaşdırılmış idarəetmə sistemi (EAİS), dispetçerləşdirmə və televiziya üçün) küçədən birbaşa və ya mərtəbə üzrə mənzillərdənkənar dəhlizlərdən (hollardan) girişi olmalıdır; telefon paylayıcı şkaflarına yaxınlaşma, həmçinin adı çəkilən dəhliz vasitəsi ilə həyata keçirilməlidir.

### 9. Sanitariya-epidemioloji tələblərin təmin edilməsi

**9.1.** Yaşayış binaları layihələndirilərkən dövlət sanitariya-epidemioloji xidmətin tələblərinə uyğun insanların sağlamlığını və ətraf mühitin qorunmasını təmin edən tədbirlər nəzərdə tutulmalıdır.

**9.2**. Yaşayış binasının otaqlarında mikroiqlim parametrləri DÜİST 30494 sənədinin optimal normaları üzrə qəbul edilməlidir.

Otaqların havadəyişmə həcmi cədvəl 6-ya uyğun olaraq qəbul edilməlidir.

Cədvəl 6

| Otaqlar və sahələr | Havadəyişmə misli və ya həcmi, saatda 1m$^3$-dan az olmamaqla | |
|---|---|---|
| | Qeyri-iş rejimində | Iş rejimində |
| Yataq, ümumi və uşaq otaqları | - | 1,0 |
| Kitabxana, kabinet | 0,2 | 0,5 |
| Köməkçi otaq, qarderob | 0,2 | 0,2 |
| Trenajor zalı, bilyard otağı | 0,2 | 80 m$^3$/saat |
| Paltar yuyulan, qurudulan, ütülənən otaqlar | 0,5 | 90 m$^3$/saat |
| Elektrik pilətəsi olan mətbəx | 0,5 | 60 m$^3$/saat |

*Cədvəl 6-nın davamı*

| | | |
|---|---|---|
| Qaz istifadə edən avadanlığı olan sahə | 1,0 | 1,0+ 100 $m^3$/saat bir plitəyə |
| Bərk yanacaqla işləyən istilik generatorları və sobaları olan sahə | 0,5 | 1,0+ 100 $m^3$/saat bir plitəyə |
| Vanna, duş otağı, tualet, birləşdirilmiş sanitar qovşağı | 0,5 | 25 $m^3$/saat |
| Sauna | 0,5 | bir adama 10 $m^3$/saat |
| Liftin maşın bölməsi | - | Hesablama üzrə |
| Avtomobil duracağı | 1,0 | Hesablama üzrə |
| Tullantı qəbuledici kamerası | 1,0 | 1,0 |

Cədvəldə göstərilməmiş, havası dəyişdirilən digər sahələrdə havadəyişmənin misli işsizlik rejimində saatda otağın 0,2 həcmindən az olmayan həcmdə təşkil etməlidir.

**9.3.** Yaşayış binalarının xarici divarlarının istilik-texniki hesablamasında isidilən sahələrin daxili havasının temperaturu 20°C-dən az olmayaraq qəbul edilməlidir.

**9.4.** Binanın isitmə və ventilyasiya sistemi isitmə dövründə otaqlarda havanın daxili temperaturunun, müvafiq iqlim rayonlarında xarici havanın hesabi parametrləri şəraitində DÜİST 30494 ilə təyin edilmiş optimal parametrlər həddində olmasını təmin etməyə hesablanmalıdır.

Optimal parametrlər, havanın kondisiyalaşdırma sistemi qurulduğu halda, ilin isti dövründə də təmin edilməlidir.

**9.5.** Ventilyasiya sistemi otaqlarda havanın təmizliyini (keyfiyyətini) və bərabər paylanmasını təmin etməlidir.

Ventilyasiya aşağıdakı üsullarla aparıla bilər:

- havanın təbii yolla daxil olması və kənarlaşdırılması;
- havanın mexaniki üsulla daxil olması və kənarlaşdırılması, o cümlədən ventilyasiyanın hava ilə isitmə sistemi ilə birləşdirilməsi;
- havanın kombinasiya edilmiş üsulla dəyişməsi - müəyyən qədər mexaniki üsulla, əsasən isə təbii yolla daxil olması və kənarlaşdırılması.

**9.6.** Mənzillərin birbaşa və ya küncdən havalandırılması təmin edilməlidir. Mənzillərin AzDTN 2.12-2-nin tələblərinə uyğun olaraq aerasiya şaxtaları vasitəsilə şaquli havalandırılmasına yol verilir. Yaşayış otaqlarında və mətbəxdə hava axını tənzimlənən pəncərə layları, framuqalar (pəncərə və ya qapıların üst hissələri), nəfəsliklər və digər qurğularla, o cümlədən açılması idarə olunan, ayrıca (avtonom) divar hava qapaqları (klapanları) vasitəsi ilə təmin olunur.

**9.7.** Mətbəxlərdən, sanitar qovşaqlarından və layihə həllərində nəzərdə tutulduğu hallarda mənzilin digər otaqlarından hava kənarlaşdırılmaqla təmizlənməlidir və bu məqsədlə sorma kanallarında və hava kəmərlərində tənzimlənən ventilyasiya şəbəkələrinin (barmaqlıqlarının) və qapaqların qurulması nəzərdə tutulmalıdır.

Zərərli maddələr və ya xoşagəlməz iylər ayrılan sahələrdən hava birbaşa xaricə çıxarılmalı və binanın digər otaqlarına (o cümlədən ventilyasiya kanalı vasitəsi ilə) keçməməlidir.

Mətbəxlər, sanitar qovşaqları və ərzaq saxlanılan köməkçi otaqların ventilyasiya kanallarının binadaxili avtomobil duracaqları və qaz avadanlığı yerləşən sahələrin ventilyasiya kanalları ilə birləşdirilməsi yolverilməzdir.

**9.8.** Normaların 4.14-cü bəndində göstərilənlər istisna olmaqla binanın hüdudlarında yerləşən ictimai təyinatlı obyektlərin ventilyasiyası ayrıca (avtonom) olmalıdır.

**9.9.** İsidilən çardağı olan binalarda çardağın havasının təmizlənməsi binanın hər seksiyası üçün, hündürlüyü axırıncı mərtəbənin dam örtüyündən ən azı 4,5 m hündürlükdə olan bir sorucu şaxta vasitəsi ilə nəzərdə tutulmalıdır.

**9.10.** Havasorma ventilyasiyası olmayan zirzəmilərin, yeraltı texniki sahələrin və isidilməyən çardağın xarici divarlarında, ümumi sahəsi zirzəmilərin və ya yeraltı texniki sahənin 1/400-dən az olmayan, xarici divarların perimetri boyunca açılmış havaçəkən dəliklər nəzərdə tutulmalıdır. Bir havaçəkənin sahəsi ən azı 0,05 $m^2$ olmalıdır.

**9.11.** Yaşayış binasında mənzillərin (sahələrin) arasıkəsilməz insolyasiyasının fasiləsiz davamiyyəti mövcud SN və Q 2605-ya uyğun qəbul edilməlidir.

1, 2 və 3 otaqlı mənzillərdə ən azı bir yaşayış otağında, 4 və daha çox otaqlı mənzillərdə isə ən azı iki otaqda normalaşdırılmış insolyasiya davamiyyəti təmin edilməlidir.

**9.12.** TNvəQ 2.08.02-yə əsasən zirzəmi mərtəbəsində yerləşdirilməsinə yol verilən sahələr istisna olmaqla, yaşayış otaqları və mətbəxlərin, binanın hüdudlarında yerləşən ictimai təyinatlı sahələrin təbii işıqlandırılması olmalıdır.

**9.13.** Yaşayış otaqlarında və mətbəxlərdə işıqlandırma açıqlıqlarının (pəncərələr, lociyanın açıq sahəsi) sahəsinin döşəmənin sahəsinə nisbəti 1:8-dən az olmamalıdır; pəncərələri maili divar konstruksiyalarında yerləşən yuxarı mərtəbələr üçün bu nisbət, pəncərələrin işıq buraxma xüsusiyyətləri və qarşıdakı binaların kölgə salması nəzərə alınmaqla, 1:10-dan az olmayaraq qəbul edilməlidir.

**9.14.** Birbaşa işıqlandırılması olmayan antresolun alt hissəsindəki sahələrdə; paltaryuma otaqları, köməkçi otaqlar, geyim əşyaları saxlanılan otaqlar və sanitar qovşaqlarında; giriş otaqları və mənzildaxili dəhlizlər və hollarda; mənzillərin tamburlarında, mənzildən kənar dəhlizlərdə, vestibüllər və hollarda təbii işıqlandırılma normalaşdırılmır.

**9.15.** Müxtəlif sahələrin təbii və süni işıqlandırılmasının normalaşdırılmış göstəriciləri DTN 2.04-05-ə uyğun təyin olunmalıdır. Binanın giriş yerlərində üfüqi səthlər üçün işıqlandırma ən azı 6 *lk*, şaquli (2 m-ə qədər) səthlər üçün ən azı 10 *lk* olmalıdır.

**9.16.** Ümumi dəhlizlərin xarici divarlarında olan işıqlandırma açıqlıqları (pəncərələr) vasitəsi ilə işıqlandırılması zamanı onların uzunluğu: işıqlandırma açıqlığı dəhlizin yalnız bir başında olduqda 24 m, iki başında olduqda 48 m-dən artıq olmamalıdır. Dəhliz daha uzun olduqda, onun işıqlandırılması üçün əlavə işıqlandırma aralıqları nəzərdə tutulmalıdır. İki işıqlandırma aralığı arasında məsafə ən çoxu 24 m, işıqlandırma aralığı ilə dəhlizin başındakı işıqlandırma açıqlığı arasında məsafə isə 30 m-dən artıq olmamalıdır. Eni 1,5 m-dən az olmayan pilləkən qəfəsi də işıqlandırma aralığı hesab edilə bilər. Bir işıqlandırma aralığı vasitəsi ilə, hər tərəfə 12 m olmaqla, dəhlizin işıqlandırılmasına yol verilir.

**9.17.** III iqlim rayonunda tikinti üçün layihələndirilən binaların yaşayış otaqlarında və mətbəxlərində, həmçinin IV iqlim rayonunda 200°-290° üfüq sektoru hüdudlarında yerləşən lociyalarda təbii işıqlandırma boşluqları, tənzimlənən günəşdənqorunma qurğuları ilə təchiz olunmalıdır.

İkimərtəbəli binalarda gündən qorunmanın yaşıllıqlar vasitəsi ilə həyata keçirilməsinə yol verilir.

**9.18.** III iqlim rayonunda yaşayış binalarının girişində dərinliyi 1,5 m olan tambur nəzərdə tutulmalıdır.

**9.19.** Binaların damları su axıdılmasının təşkili ilə planlaşdırılmalıdır. Giriş qapısı üzərində günlük və binanın perimetri boyunca səkilərin nəzərdə tutulması şərtilə ikimərtəbəli binaların damlarının su axıdılması təşkil olunmadan (navalça ilə) layihələndirilməsinə yol verilir.

**9.20.** Yaşayış otaqlarının və mətbəxin üstündə sanitar qovşağının layihələndirilməsinə yol verilmir. İkisəviyyəli mənzillərdə sanitar qovşağının mətbəx üstündə yerləşdirilməsinə yol verilir.

**9.21.** Tikintidə istifadə edilən bütün material və məmulatlar insan orqanizmi üçün təhlükəsiz olmalıdır və onların sanitariya norma və qaydalarına, gigiyena normativlərinə uyğunluğu dövlət sanitariya-epidemioloji nəzarət orqanları tərəfindən verilmiş gigiyenik sertifikatlarla təsdiq edilməlidir.

**9.22.** Yaşayış otaqlarının daxili və xarici qoruyucu konstruksiyalarının səs izolyasiyası DTN 2.04-03 və "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nda yolverilən səviyyəyə qədər xarici səs-küy mənbələrinin səs təzyiqinin, həmçinin zərbə səs təzyiqinin və mühəndis sistemi avadanlıqlarının, havaötürücü boruların səs təzyiqinin azaldılmasını təmin etməlidir.

Mənzillərarası divar və arakəsmələrin hava səs-küyündən izolyasiya indeksi 50 dB-dan aşağı olmamalıdır.

**9.23.** Yüksək nəqliyyat səs-küyü olan ərazidə yaşayış binaları yerləşdirilərkən səs-küyün azaldılması səs əleyhinə xüsusi tədbirlər yolu ilə, o cümlədən təsirli səsdənqoruyucu xüsusiyyətləri olan xarici divar və digər qoruyucu konstruksiyalarından və pəncərə aralığı doldurucularından istifadə etməklə həyata keçirilə bilər.

**9.24.** Mühəndis avadanlığından və digər binadaxili mənbələrdən yaranan səs-küy təyin edilmiş yolverilən səviyyəni və binadaxili səs mənbələri işləmədikdə isə fon göstəricilərini 2 dB-ni aşmamalıdır.

**9.25.** Yolverilən səs-küy səviyyəsinin təmin olunması üçün sanitar cihazlarının və boru kəmərlərinin birbaşa mənzillərarası divarlara və həmçinin, yaşayış otaqlarını ayıran divar və arakəsmələrə birləşdirilməsinə yol verilmir.

Maşın şöbəsini və lift şaxtalarını, tullantı qəbuledici kameranı, tullantı ötürücünün borusunu (gövdəsini) və onun təmizləmə qurğusunu yaşayış otaqlarının üstündə, altında, həmçinin yaşayış otağı ilə yanaşı və ya bitişik yerləşdirilməsinə yol verilmir.

**9.26.** Yataq otağı yanında sanitar qovşağı nəzərdə tutularkən, bəzi hallarda səs-küydən qorunmaq məqsədilə aralığa kiçik qarderob otağı salmaq tövsiyə edilir.

**9.27.** Binanın su ilə təminatı yaşayış məskəninin mərkəzi su təchizatı şəbəkəsindən nəzərdə tutulmalıdır. Mərkəzi su təchizatı şəbəkəsi olmayan rayonlarda bir-iki mərtəbəli binalar üçün yeraltı sulu laylardan və ya su hövzələrindən, gündəlik su sərfi adambaşına 60 litrdən az olmamaq şərti ilə, fərdi və ya kollektiv su mənbəyinin nəzərdə tutulmasına yol verilir.

**9.28.** Çirkab sularının kənarlaşdırılması üçün müvafiq normativ sənədlərin tələblərinə uyğun olaraq mərkəzləşdirilmiş və ya lokal kanalizasiya sistemi nəzərdə tutulmalıdır.

Çirkab suları ərazi və yeraltı sulu laylar çirkləndirilmədən kənarlaşdırılmalıdır.

**9.29.** Bərk məişət tullantılarını və yaşayış binasının içərisində yerləşən ictimai təyinatlı sahənin istismarı zamanı yaranan tullantıları yığan qurğular mənzil fondunun istismarı ilə bağlı qəbul edilən qaydalara uyğun qurulmalıdır.

**9.30.** Yaşayış binalarından bərk məişət tullantılarının kənarlaşdırılması üsulu, sifarişçi tərəfindən yaşayış məskənində qəbul edilmiş tullantıların kənarlaşdırılma sistemi nəzərə alınmaqla müəyyən edilir.

Əlilliyi olan şəxslər və ahıllar üçün nəzərdə tutulmuş evlərdə tullantıötürücü borunun quraşdırılması vacibdir.

Tullantıötürücü borusu, yaşayış məskəninin saxlanılmasının sanitar qaydalarına uyğun, vaxtaşırı onun borusunu yuyan, təmizləyən, dezinfeksiya edən qurğu ilə və avtomatlaşdırılmış yanğınsöndürən qurğu ilə təchiz edilməlidir.

Tullantıötürücü borusu yaşayış otaqlarına bitişik qurulmamalıdır, onun borusu ilə tikinti konstruksiyaları arasında havakeçiricilik və səskeçiricilik olmamalıdır.

**9.31.** Məktəbəqədər təhsil və tibb müəssisələri yerləşən mərtəbələr, avtomobil duracağı yerləşmiş mərtəbədən texniki mərtəbə və ya qeyri-yaşayış təyinatlı mərtəbə ilə ayrılmalıdır (işlənmiş qazlardan və normadan artıq səs-küydən qorunmaq üçün).

**9.32.** Çoxmənzilli yaşayış binalarının birinci, kürsülük və ya zirzəmi mərtəbələrində əl-üz yuyanı olan yır-yığış və təmizlik inventarı saxlanılan köməkçi otaq nəzərdə tutulmalıdır.

**9.33.** Torpaqdan (qruntdan) radiasiyanın (radonun) daxil olmasını azaltmaq üçün binanın zirzəmi və ya kürsülük mərtəbəsi ilə birinci mərtəbəsi arasında örtük konstruksiyasını germetikləşdirmək və zirzəmi mərtəbəsində havanın vaxtaşırı təmizlənməsi üçün AzDTN 2.12-2-nin tələblərinə riayət etmək lazımdır.

**9.34.** Əhalinin 50 Hz tezlikli maqnit sahələrinin zərərli təsirindən mühafizə olunması məqsədilə yaşayış binalarında "Yaşayış evlərində, ictimai binalarda və tikinti aparılan ərazilərdə 50 Hz tezlikli maqnit sahələrinə olan gigiyena tələbləri" təmin olunmalıdır.

### 10. Enerji səmərəliliyinin (enerji effektivliyinin) təmin edilməsi tədbirləri

**10.1.** Yaşayış binaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 mart tarixli 73 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə Qaydalar" nəzərə alınmaqla elə layihələndirilməli və tikilməlidir ki, mənzillərin otaqlarının və yerləşkələrinin daxili mikroiqliminə (DÜİST 30494) aid tələblər yerinə yetirildikdə binaların istismar dövründə enerji resurslarının səmərəli və qənaətli istifadəsi təmin edilsin.

**10.2.** Binanın konstruksiyalarının və mühəndis sistemlərinin texniki-istilik (istilik texnikası) xüsusiyyətlərinə görə onun enerji səmərəliliyinin (enerji effektivliyinin) qiymətləndirilməsində Normaların tələbləri aşağıda gostərilən şərtlərə əməl olunduqda, yerinə yetirilmiş hesab edilir:

- xarici divarların və digər qoruyucu konstruksiyaların çevrilmiş istilik keçirmə müqaviməti və havanüfuzetmə qabiliyyəti TNvəQ II-3-ün tələblərindən aşağı olmadıqda;
- isitmə, ventilyasiya, havanın kondisiyalaşdırılması və isti su təchizatı sistemləri avtomatik və ya əl ilə tənzimləndikdə;
- binanın mühəndis sistemləri istilik və elektrik enerjisinin, suyun və qazın uçotunu aparan cihazlarla təmin olunduqda.

Binanın istilik təchizatı və ventilyasiyasına enerji sərfinin kompleks göstəricisi üzrə enerji səmərəliliyinin (enerji effektivliyinin) qiymətləndirilməsi zamanı binada mikroiqlimin normalaşdırılmış parametrlərinin və havanın keyfiyyətinin saxlanılması üçün enerji sərfi maksimal yolverilən normativ enerji sərfini üstələmədiyi halda Normaların tələbləri yerinə yetirilmiş hesab edilə bilər. Bu halda Normaların 10.1-ci bəndin tələbləri yerinə yetirilməlidir.

**10.3.** Binanın optimal texniki-iqtisadi göstəricilərinə nail olmaq və gələcəkdə də binanın qızdırılmasına enerji sərfini azaltmaq məqsədilə aşağıdakıları nəzərdə tutmaq tövsiyə olunur:

- binanın kompakt həcm-planlaşdırma həllinə nail olmaq;
- binanın və onun tikililərinin soyuq küləklərin və günəş radiasiyasının üstünlük təşkil etdiyi istiqamətlər nəzərə alınmaqla yerləşdirilməsi;
- faydalı iş əmsalı yüksək olan səmərəli mühəndis avadanlığının tətbiqi;
- kənarlaşdırılan havanın və çirkab sularının istiliyinin utilizasiyası və bərpa olunan enerji mənbələrindən istifadə (günəş, külək enerjisi).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 vart narixli 73 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə Qaydalar"ına uyğun olaraq binaların layihə sənədləri işlənilərkən tələb olunan enerji səmərəliliyi (enerji effektivliyi) sinfi, enerji resurslarına qənaət edilməsi və enerji səmərəliliyinin (enerji effektivliyinin) artırılması üzrə tələblər layihə tapşırığında göstərilməlidir. Layihə sənədlərinin enerji resurslarına qənaət edilməsi və enerji səmərəliliyi (enerji effektivliyi) üzrə bölməsində layihələndirilən binaların ümumi enerji xarakteristikası, enerji pasportu, enerji səmərəliliyi (enerji effektivliyi) sinfi, həmçinin enerji resurslarına qənaət edilməsi və enerji səmərəliliyinin (enerji effektivliyinin) artırılmasına yönəldilmiş layihə həlləri nəzərdə tutulmalıdır.

**10.4.** Binanın normativ göstəricilər üzrə enerji resurslarından səmərəli istifadə olmasına nəzarət məqsədilə layihə sənədlərinin tərkibində binaların istilik mühafizəsi üzrə mövcud TNvəQ II-3 və DQT 2.04-101 normativ sənədlərə uyğun olaraq binanın enerji pasportu, binaya verilmiş enerji səmərəliliyi (enerji effektivliyi) sinfi barədə məlumat, binanın layihəsinin bu normativ sənədin tələblərinə uyğunluğu barədə rəy və layihənin təkmilləşdirilməsi zərurəti yarandığı halda, enerji səmərəliliyinin (enerji effektivliyinin) yüksəldilməsi barədə tövsiyələr olmalıdır.

**11. Uzunömürlülük və təmirəyararlılıq**

**11.1.** Binaların yükdaşıyan konstruksiyaları Normaların tələbinə uyğun öz xüsusiyyətlərini DÜİST 27751 standartı ilə və ya layihə tapşırığında təyin edilmiş istismar müddəti ərzində saxlamalıdır.

**11.2.** Yaşayış binasının möhkəmliyini və dayanıqlılığını müəyyən edən onun yükdaşıyan konstruksiyaları, DÜİST 27751, AzDTN 2.16-1, AzDTN 2.17-1, AzDTN 2.18-1, AzDTN 2.19-1 sənədlərinin tələbləri nəzərə alınmaqla binanın istismar müddəti ərzində yol verilə bilən hədlər daxilində öz xüsusiyyətlərini saxlamalıdır.

**11.3.** İstismar müddəti binanın nəzərdə tutulan istismar müddətindən az olan elementlər, detallar, avadanlıq istismara dair təlimatda təyin edilmiş təmirlərarası müddətlərə uyğun olaraq və layihə tapşırığının tələbləri nəzərə alınmaqla dəyişdirilməlidir. Təmirlərarası müddətlərin müvafiq artırılması və ya azaldılması zamanı, daha az və ya daha çox uzunömürlü elementlərin, materialların və avadanlığın tətbiqi barədə qərar texniki-iqtisadi hesabatlar ilə müəyyən edilir.

Material, konstruksiya və tikinti işlərinin texnologiyası binanın sonrakı təmir, texniki xidmət və istismarı üçün minimal xərclərin təmin olunması nəzərə alınmaqla seçilməilidir.

**11.4.** Konstruksiyalar, detallar və bəzək materialları rütubət, aşağı və yüksək temperatur, aqressiv mühit və digər əlverişsiz amillərin mümkün təsirlərinə qarşı davamlı materiallardan hazırlanmalı və ya TNvəQ 2.03.11-ə əsasən mühafizə olunmalıdır.

**11.5.** Mürəkkəb həcm-planlaşdırma həllərində binanın yağış, qar və qrunt sularının binanın yükdaşıyan və qoruyucu konstruksiyalarının içərisinə keçməsindən, həmçinin xarici qoruyucu konstruksiyalarda kondensasiya rütubətinin əmələ gəlməsindən mühafizəsi üçün tədbirlər nəzərdə

tutulmalı və ya qapalı məkanların ventilyasiyası, yaxud hava aralaylarının qurulması nəzərdə tutulmalıdır.

**11.6.** Yığma elementlərin birləşmə yerləri və çoxlaylı konstruksiyalar əsasların qeyri-bərabər çökməsi və digər istismar təsirlərindən əmələ gələn temperatur deformasiyaları və yüklərin qəbul edilməsinə hesablanmalıdır.

Birləşmə yerlərində istifadə olunan sıxlaşdırıcı və germetikləşdirici materiallar mənfi temperatur və islanmaların təsiri zamanı elastiklik və adgeziya xassələrini saxlamalı və ultrabənövşəyi şüalara davamlı olmalıdır. Germetikləşdirici materiallar konstruksiyaların mühafizə və mühafizə-dekorativ örtükləri ilə onların birləşdirilmə yerlərində bir-birilə uyğunlaşan olmalıdır.

**11.7.** Binanın mühəndis sistemlərinin avadanlığına, armatur və cihazlarına və onların birləşmələrinə və binanın dam örtüyünün yükdaşıyan elementlərinə baxış, texniki xidmət, təmir və əvəzetmə məqsədi ilə icraçı - mühəndis-texnik, təmir briqadası, mühafizə (əgər varsa) xidməti işçi heyətinin həmin sahələrə daxil olmaq imkanı təmin olunmalıdır.

**11.8.** Binaların yükdaşıyan konstruksiyaları elə şəkildə layihələndirilməli və quraşdırılmalıdır ki, onların tikintisi prosesində və istismarın hesabi şərtlərində aşağıdakı hallar istisna olunsun:

- konstruksiyaların istismarının dayandırılması zərurətinə gətirib çıxaran dağılması və ya zədələnməsi;
- deformasiya və ya çatların əmələ gəlməsi nəticəsində konstruksiyaların və ya bütövlükdə binaların istismar xüsusiyyətlərinin yolverilməz dərəcədə pisləşməsi.

Binaların konstruksiyaları və əsasları tikinti rayonu və meydançasında təhlükəli geoloji proseslərin təsirləri nəzərə alınmaqla hesablanmalıdır.

Binaların işlənilən ərazilərdə, çökmə qruntlarda, seysmik rayonlarda, həmçinin digər mürəkkəb geoloji şəraitdə yerləşdirilməsi zamanı müvafiq normativ texniki sənədlərin əlavə tələbləri nəzərə alınmalıdır.

**11.9.** Konstruksiyaların hesablanması zamanı, baş verməsi az ehtimal olunan və az müddət davam edən, son həddə çatma nöqteyi-nəzərindən elə də vacib olmayan qəza halı da (məsələn, partlayış, toqquşma, yanğın, həmçinin konstruksiyanın hər hansı bir elementinin sıradan çıxmasından sonra bilavasitə yaranmış hal) daxil olmaqla, hesabi hallar nəzərdən keçirilməlidir.

Əlavə 1

**Sərnişin liftlərinin minimal sayı və hərəkət sürətinə dair minimal tələblər**

| Binanın yerüstü hissəsinin mərtəbəliliyi | Liftlərin sayı | Yükqaldırma qabiliyyəti, kq | Sürəti, m/s | Mərtəbələrdə mənzillərin maksimal ümumi sahəsi, $m^2$ |
|---|---|---|---|---|
| 9-a qədər | 1 | 630 və ya 1000 | 1,0 | 600 |
| 10-12 | 2 | 400<br>630 və ya 1000 | 1,0 | 600 |
| 13-17 | 2 | 400<br>630 və ya 1000 | 1,0 | 450 |
| 18-19 | 2 | 400<br>630 və ya 1000 | 1,6 | 450 |
| 20-25 | 3 | 400<br>630 və ya 1000<br>630 və ya 1000 | 1,6 | 350 |
| 20-25 | 4 | 400<br>400<br>630 və ya 1000<br>630 və ya 1000 | 1,6 | 450 |

*Qeyd:*

*1. Yükgötürmə qabiliyyəti 630 və ya 1000 kq olan liftlərin kabinələrinin eni və uzunu ən azı 2100 x1100 mm olmalıdır.*

*2. Cədvəl adambaşına 18 $m^2$ ümumi mənzil sahəsi, mərtəbənin hündürlüyünün 2,8 m, liftin hərəkət intervalının 81-100 s olması hesabı ilə tərtib edilmişdir.*

*3. Mərtəbələrdəki mənzil sahələrinin ölçüləri, mərtəbənin hündürlüyü və adambaşına düşən mənzilin ümumi sahəsi cədvəldə qəbul edilmiş ölçülərdən fərqləndiyi hallarda sərnişin liftlərinin sayı, yükgötürmə gabiliyyəti və sürəti hesablama yolu ilə müəyyən edilir.*

*4. Yuxarı mərtəbələrdə, çoxsəviyyəli mənzillər olan yaşayış binalarında liftlərin mənzilin mərtəbələrindən birində dayanmasına yol verilir. Bu halda liftlərin sayının hesablanması üçün mərtəbəlik lift dayanan mərtəbə üzrə müəyyən edilir.*

*5.Liftlərdə avtomatik təxliyə sistemləri nəzərdə tutulmalıdır.*

*6.Liftin şaxtasında liftə aid olmayan digər qurğuların, avadanlıqların və kommunikasiya xətlərinin layihələndirilməsinə yol verilmir.*

*7.Layihədə liftin istiqamətləndiricilərinin bağlanılması üçün şaxtanın divarına sərt bərkidilmiş kronşteynlər(bərkidicilər) nəzərdə tutulmalıdır.*

**MÜNDƏRİCAT**

1. Tətbiq sahəsi ……………………………………………………………………………….. 1 2

3. Əsas anlayışlar ........................................................................................................................ 4

4. Ümumi müddəalar ................................................................................................................... 7

5. Mənzillərə və onların elementlərinə dair tələblər ................................................................. 10

6. Konstruksiyaların yükdaşıma və buraxıla bilən deformasiya qabiliyyətləri ......................... 12

7. Yanğın və digər fövqəladə hallarda binaların təhlükəsizliyi.................................................. 12

7.1. Yanğın təhlükəsizliyinin təmin edilməsi ............................................................................. 12

7.2. Təxliyyənin təmin edilməsi .................................................................................................. 15

7.3. Binaların mühəndis sistemlərinə və avadanlığına olan yanğından mühafizə tələbləri ............... 17

7.4. Yanğının söndürülməsi və xilasetmə işlərinin təşkili .......................................................... 20

8. İstismar zamanı təhlükəsizlik.................................................................................................. 20

9. Sanitariya-epidemioloji tələblərin təmin edilməsi ................................................................. 22

10. Enerji səmərəliliyinin (enerji effektivliyinin) təmin edilməsi tədbirləri.............................. 5

11. Uzunömürlülük və təmirəyararlılıq........................................................................................ 6

Əlavə 1 ......................................................................................................................................... 8

2. Normativ istinadlar ……………………………………………………………………….. 1